

Milli azadlıqdan
şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

11 sentyabr
2026-cı il,
cümə
№ 164 (7231)
Qiymət
60 qəpik


# Prezident İlham Əliyev Qaradağ rayonunda...




Bax səh. 2

# Azərbaycanın qlobal iqlim fəaliyyətində liderliyi

Bax səh. 2

## Bakıdan yeni çağırış: İqlim maliyyəsini 1 trilyon ABŞ dollarını ötən miqyasda səfərbər etmək mümkündür



## Qeyri-neftə əsaslanan inkişaf göstəriciləri

**Yanvar-avqust aylarında ÜDM 1,2 faiz artıb**

Bax səh. 3

## Vahid ölkə nümayəndəliyi

**Dünya Bankı Azərbaycanla əməkdaşlığın yeni modelinə keçir**

Bax səh. 3

# "Əkiz qüllələr"dən dünyaya yayılan qorxu!



Bax səh. 7

Bax səh. 8



# Prezident İlham Əliyev Qaradağ rayonunda...










Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da paytaxtın Qaradağ rayonunda "Fabriora Group" Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) kağız və gigiyenik məhsulların istehsalı müəssisəsinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Fabriora Group" MMC-nin təsisçisi İbrahim Uygur dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, müəssisədə həm yerli bazar, həm də xarici ölkələrdən gətirilən xammal və materiallardan istifadə olunmaqla kağız və gigiyenik məhsullar, o cümlədən uşaq bezləri, müxtəlif salfetlər və yuyucu vasitələr istehsal ediləcək. On bir hektara yaxın ərazidə yerləşən müəssisədə Almaniya, İtaliya və Türkiyənin müasir və yüksək avtomatlaşdırılmış istehsal texnologiyaları tətbiq olunacaq.

Məhsullar daxili bazarla yanaşı, Gürcüstana, Qazaxıstana, Rusiyaya, Yaxın Şərq ölkələrinə və digər dövlətlərə ixrac ediləcək. Burada 240 nəfərin daimi işlə təmin edilməsi planlaşdırılır.

Müəssisə İqtisadiyyat Nazirliyinin tabeliyində Əmlak Məsələləri Dövlət Xidmətinin təşkil etdiyi investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilib. Layihənin ümumi investisiya dəyəri 27 milyon manatdır.

"Fabriora Group" MMC investisiya təşviqi sənədi əsasında avadanlıq idxalı zamanı ƏDV və gömrük rüsumlarından 1 milyon manat dəyərində güzəşt əldə edib.

Qeyd edək ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin mühüm istiqamətlərindən biri sənaye potensialının gücləndirilməsi və rəqabətqabiliyyətli istehsalın genişləndirilməsidir. Sənayeləşmə prosesinin nəticələrindən biri də ölkədə daha dayanıqlı istehsal və təchizat zəncirlərinin formalaşmasıdır. Yerli istehsalın genişləndirilməsi həm daxili tələbatın ödənilməsinə və idxaldan asılılığın azaldılmasına, həm də Azərbaycan məhsullarının xarici bazarlara çıxışının artırılmasına imkan yaradır.

# Azərbaycanın qlobal iqlim fəaliyyətində liderliyi

## Bakıdan yeni çağırış: İqlim maliyyəsini 1 trilyon ABŞ dollarını ötən miqyasda səfərbər etmək mümkündür

Uğurlu siyasət nəticəsində orta güc dövləti səviyyəsinə yüksələn Azərbaycan özünün geniş imkanlarını təqdim etməklə qlobal çağırışlar qarşısında beynəlxalq həmrəyliyin gücləndirilməsinə davamlı töhfələr verir. O cümlədən respublikamız hazırda dünyada əsas çağırışlardan biri sayılan iqlim fəaliyyətləri sahəsində qlobal liderliyini davam etdirir. Böyük uğurla keçən və bir sıra mühüm substantiv nəticələr əldə olunan GOP29-dan sonra ölkəmizin bu sahədə daha bir neçə beynəlxalq tədbirə, son olaraq isə bu günlərdə Dördüncü Bakı İqlim Fəaliyyəti Həftəsinə (BCAW) ev sahibliyi etməsi bunun əyani təsdiqidir.

Artıq üçüncü dəfə keçirilən Bakı İqlim Fəaliyyəti Həftəsi hökumət və özəl sektor nümayəndələrini, investorları, beynəlxalq təşkilatları, akademik dairələri, vətəndaş cəmiyyətini, gəncləri, şəhərləri və digər tərəfləri bir araya gətirərək konkret iqlim həllərinin təşviqi, yeni tərəfdaşlıqların qurulması və investisiya imkanlarının genişləndirilməsinə xidmət edir. Xarici işlər naziri Ceyhun Bayramov Dördüncü Bakı İqlim Fəaliyyəti Həftəsinin açılış tədbirindəki çıxışında, həmçinin jurnalistlərə açıqlamasında ölkəmizin gündəliyinin aktual məsələlərinə diqqət çəkib, eyni zamanda iqlim fəaliyyətləri ilə bağlı beynəlxalq birliyə bir sıra mühüm çağırışlar edib.

**Qlobal iqlim dəyişmələrindən bütün dünya təsirlənir**

Hazırda dünya üzrə iqlim dəyişmələri ilə bağlı çağırışların aktuallığının artması heç də təsadüfi deyil. Ekspertlər kədərli müqayisələr aparırlar. Bildirilir ki, əgər bir vaxtlar qlobal səviyyədə əhali artımına, insanların həyat tərzinə, sosial vəziyyətinə daha çox müharibələr mənfi təsir göstərirdisə, indi burada iqlim dəyişmələri önə çıxmaqdadır. Dünyanı təhdid edən iqlim dəyişmələrinin qlobal istiləşmə və sürətli sənaye inkişafının nəticəsi olaraq yarandığı bildirilir. Uzun illərdir ki, dünyada artan əhali neft, qaz, kömür yandırır. Eyni zamanda, avtomobillərin sayı sürətlə artır. Bütün bu kimi fəaliyyətlər atmosferə daha çox həcmlərdə tullantıların, karbon qazının buraxılması ilə nəticələnir. Eyni zamanda, qlobal istiləşmənin sürətlənməsi həyəcan təbili çalmağa əsas verir. 2011-2020-ci illər arasında buzlaqların əriməsi əvvəlki 10 illərlə müqayisədə 75 faiz artıb. Təbii fəlakətlərin - isti küləklərin, qasırğaların, yağıntıların, sel və daşqınların sayı əhəmiyyətli dərəcədə artıb. Okeanın səthi əvvəllər 1000 metr dərinliyə qədər qızırdısa, artıq bu göstərici 2000 metr dərinliyə qədər çatır.

Fəsadlar da çox ağırdır. Ekstremal hava şəraiti, hidroloji və iqlim hadisələri insan təhlükəsizliyinə, milli iqtisadiyyatlara, şəhər və kənd mühitinə, qida və su təhlükəsizliyinə öz mənfi təsirlərini göstərir. Təəssüf ki, biz belə mənfi təsirlərin statistikasında sürətli artım dinamikasını izləyirik. Ətraf mühitin çirklənməsi, müxtəlif təbiət hadisələri hər il təxminən 13 milyon insanın həyatına son qoyur. Bu gün iqlim dəyişmələri insanları yoxsulluğa sövq edən və həyat tərzinin yaxşılaşmasına mane olan əsas problemlərdən biri qismində çıxış edir. XXI əsrin ikinci onilliyində (2010-2019) ekologiya ilə bağlı hadisələr hər il orta hesabla 23,1 milyon insanı öz daimi yaşayış yerindən köçmək məcburiyyəti ilə üz-üzə qoyub. Xüsusilə də son dövrlər iqlim dəyişmələrinin fəsadları qlobal iqlim böhranında təhlükəli hadisələrin artması və onların daha da şiddətlənməsi ilə müşahidə edilir. İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspert Panelinin sonuncu hesabatında bildirilib ki, aşağı və ortagəlirli ölkələrdə, xüsusilə şəhər ərazilərində iqlim risklərinə həssaslıq daha da yüksəlir. Avropada anomal istilər, Nepalda dağıdıcı sellər vəziyyətin nə dərəcədə ciddi olduğunu göstərir.

Həmçinin bütün dünya kimi, Azərbaycan da iqlim dəyişmələrindən ciddi şəkildə təsirlənir. Ölkəmizdə avqust ayının son günündə bir sutka ərzində 5 aylıq normada yağıntı düşüb. Ceyhun Bayramov Bakı İqlim Fəaliyyəti Həftəsinin açılış tədbirindəki çıxışında diqqəti Xəzər dənizində müşahidə edilən dəyişmələrə çəkib. XİN rəhbərinin vurğuladığı kimi iqlim dəyişmələrinin bir nümunəsi Xəzər dənizidir. "Son bir neçə il ərzində Xəzər dənizinin səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşüb. Bu gün Xəzərin sahilində, gözəl Bakı bulvarı boyunca gördüyünüz sahil xətti cəmi bir neçə onillik əvvəl tanıdığımız sahil xətti deyil. İqlim dəyişikliyinin artan təsirləri milli iqtisadiyyatlar və dövlət maliyyəsi üzərində maliyyə təzyiqi yaradır. Qlobal qeyri-sabitlik, münaqişələr və bazarlardakı dəyişiklik bu təzyiqləri daha da artırır. Bu proseslər iqtisadi şaxələndirməni və enerji dayanıqlığını milli təhlükəsizlik, iqtisadi sabitlik və uzunmüddətli dayanıqlılıq baxımından getdikcə daha mühüm edir", - deyə nazir vurğulayıb.

**COP29-un son dərəcə uğurlu nəticələri**

Azərbaycanın 2024-cü ilin noyabr ayında böyük uğurla ev sahibliyi etdiyi COP29 artıq tarix olsa da, onunla bağlı müzakirələr beynəlxalq platformalarda hələ də davam etdirilir. Bu, bir tərəfdən son vaxtlarda iqlim çağırışlarının aktuallığının artması ilə, digər tərəfdən isə Bakıda çox mühüm nəticələrin əldə olunması ilə bağlıdır. Azərbaycan qısa müddətdə COP29-a məsuliyyətli hazırlıqlar görərək tədbiri yüksək səviyyədə keçirməyə, beynəlxalq birliyin diqqətini həssas məqamlara yönəltməyə, maliyyələşmə ilə bağlı konsensusa gəlinməsinə nail olmağı bacardı.

COP29-un mirası çox doğru olaraq Azərbaycanın qlobal liderliyinin əyani təsdiqi kimi dəyərləndirilir. Məhz ölkəmizin, şəxsən Prezident İlham Əliyevin böyük səyləri sayəsində Bakıda baş tutan iqlim konfransında uğurlu nəticələr əldə olundu. Bu sırada aşağıdakıları xüsusi olaraq qeyd etmək mümkündür:

- Hər il inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollar iqlim maliyyəsini yönəltməyi nəzərdə tutan yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi (BMG) barədə razılığın əldə olunması. Bakı Maliyyə Məqsədi, inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər inkişaf etməkdə olan dövlətlər üçün hər il ən azı 300 milyard dollar məbləğində vəsaitin səfərbər olunmasına rəhbərlik etməsini nəzərdə tutan əsas hədəfləri müəyyənləşdirir. Xatırladaq ki, bu göstərici əvvəllər 100 milyard dollar olub.

- 2015-ci ildən bəri ilk dəfə olaraq COP29-da Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirildi. 6-cı maddə ilə bağlı yekdilliklə qəbul edilən qərarlar ətraf mühitin bütövlüyünü, şəffaflığı və karbon bazarlarının möhkəmliyini təmin etməkdə mühüm rol oynayacaq.

- 2022-ci ildə təşəbbüs kimi irəli sürülmüş və iqlim dəyişmələrinin təsirlərinə ən çox məruz qalan ölkələrə maliyyə yardımını nəzərdə tutan İtki və Zərər Fondunun tam şəkildə institutlaşdırılması. İtki və Zərər Fonduna ölkələr tərəfindən vəd edilən maliyyə vəsaitinin həcmi 730 milyon dollardan çoxdur. İqlim dəyişmələrinin fəsadlarının



kiçik ada dövlətlərinə təsirlərinin yaratdığı çətinliklərin həlli Prezident İlham Əliyev tərəfindən COP29 Sədrliyinin prioritetlərindən biri kimi müəyyən olunub. Bu baxımdan, İtki və Zərər Fondunun fəaliyyətə başlaması COP29 Sədrliyinin böyük uğuru oldu.

- Qlobal Adaptasiya Hədəfi sənədi ilə Bakı Adaptasiya Yol Xəritəsinin yaradılması.

- COP29-un qərarı ilə 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramı qəbul edildi.

Dördüncü Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində baş tutan tədbirlərdə iştirakçılar Azərbaycanın COP29 konfransı ilə qlobal iqlim fəaliyyətlərinə verdiyi böyük töhfələri yüksək dəyərləndiriblər. Ceyhun Bayramov çıxışında bildirib ki, COP29 zamanı Bakıda iqlim maliyyələşdirilməsi, karbon bazarları və Paris Sazişinin digər istiqamətləri üzrə tarixi qərarlar qəbul edildi. Bu qərarlar iqlim fəaliyyətinin sürətləndirilməsinə, öhdəliklərini həyata keçirməyə hazır olan, lakin bunun üçün kifayət qədər resursu olmayan ölkələrə dəstək göstərilməsinə xidmət edir.

Nazir qeyd edib ki, Bakı Maliyyə Məqsədi tərəflər arasında etimadın təməli kimi layiqincə yerinə yetirilməli və həyata keçirilməlidir: "Onun ambisiyası 300 milyard ABŞ dollarını aşmalıdır. Bakıdan Beləmə Yol Xəritəsinin də göstərdiyi kimi, iqlim maliyyəsini 1 trilyon ABŞ dollarını ötən miqyasda səfərbər etmək mümkündür".

**Azərbaycan fəal rolunu davam etdirməyə hazırdır**

Məsuliyyətli dövlət olan Azərbaycan digər istiqamətlərdə olduğu kimi, iqlim fəaliyyətlərində də ardıcıllıq nümayiş etdirir. Respublikamız 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir.

Ceyhun Bayramov bildirib ki, biz iqlim gündəliyində və ondan kənarda tərəqqinin təmin olunmasında fəal rolumuzu davam etdirməyə hazırıq. "COP Sədrliyimizin başa çatmasından sonra da bu dinamikanı davam etdiririk. Rəsmi platformalarla yanaşı, qeyri-rəsmi diplomatiyanın mühüm rolunu da qəbul edirik. 2024-cü ildən etibarən Şamaxı Görüşləri vasitəsilə baş danışıqları bir araya gətirərək etimad yaratmağa, fikir ayrılıqlarını aradan qaldırmağa və mürəkkəb iqlim məsələləri üzrə konsensusa nail olmağa çalışırıq. Ekspertlər və siyasətçilər iqlim dəyişikliyini və onun genişmiqyaslı təsirlərini müzakirə etmək üçün yenidən Bakıda bir araya gəliblər. Bakı İqlim Həftəsini rəsmi olaraq açarkən əsas diqqətimiz COP31-ə Antalyada keçiriləcək növbəti COP-a doğru dinamikanın qorunmasına, eyni zamanda regional və çoxtərəfli tərəfdaşlıqların gücləndirilməsinə yönəlib. Bu ortaq məsuliyyət ruhunda Azərbaycan Türkiyəyə, növbəti COP-a ev sahibliyi etməyə hazırlaşdığı bir vaxtda, sarsılmaz və qardaş dəstəyini bir daha təsdiqləyir. COP29 və COP31 Sədrilikləri arasında əməkdaşlıq regional həmrəyliyin nümunəsidir. Bu əməkdaşlıq iqlim fəaliyyətində davamlılığı, ambisiyalı iqlim maliyyələşdirmə mexanizmlərini və qlobal səviyyədə ardıcıl fəaliyyətin təmin edilməsinə xidmət edir", - deyə nazir vurğulayıb.

**Ölkənin ambisiyalı yaşıl gündəliyi**

Ceyhun Bayramov bildirib ki, bu çərçivədə beynəlxalq səviyyədə nümayiş etdirdiyimiz liderliyi ölkə daxilində qətiyyətli addımlarla tamamlayırıq. Azərbaycan üçüncü Milli Müəyyənləşdirilmiş Töhfəsini (NDC) təqdim edib. Biz iri həcmli günəş və külək layihələrini istifadəyə verməklə, hidroenerji imkanlarını genişləndirməklə və beynəlxalq tərəfdaşlarla təmiz enerji layihələri həyata keçirməklə bərpaolunan enerji gücümüzü artırırıq.

XİN rəhbərinin bu kimi fikirləri ölkəmizin reallıqlarına və geniş potensialına əsaslanır. Ölkəmizin kifayət qədər ambisiyalı yaşıl enerji gündəliyi var. Azərbaycan yeni qlobal çağırışa ilk qoşulan ölkələr sırasında yer alır. Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixində imzaladığı müvafiq sərəncamla "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi təsdiqlənib. Sənədə əsasən, növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş prioritet müəyyənləşdirilib ki, onlardan da biri təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi prioritetidir. Bəhs olunan bu prioritet üzrə yeni strateji dövrdə yüksək keyfiyyətli ekoloji mühitin və "yaşıl enerji" məkanının yaradılması kimi iki məqsədin effektiv reallaşdırılmasına nail olunması nəzərdə tutulub. Bütövlükdə, respublikamızda 2030-cu ilə qədər elektrik enerjisinin istehsal gücündə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması hədəflənib. Müəyyənləşdirilən zaman çərçivəsində bu hədəfə çatılması tam realdır. Xəzərin Abşeron sahillərində, işğaldan azad olunmuş ərazilərimizdə, Naxçıvanda bərpa olunan mənbələrdən enerji istehsalı üçün geniş imkanlar mövcuddur. Hesablamalara görə, ölkənin bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o cümlədən külək enerjisi üzrə 3 min MVt, günəş enerjisi üzrə 23 min MVt təşkil edir.

Azərbaycan dünyadakı qabaqcıl təcrübəyə istinad etməklə özünün zəngin bərpa olunan enerji potensialından səmərəli şəkildə istifadə etmək niyyətindədir. Bu sahəyə məşhur şirkətlərin investisiyalarının cəlb olunması böyük perspektiv vəd edir. İndiyədək bir neçə stansiya fəaliyyətə başlayıb və yenilərinin də inşası davam etdirilir. "Artıq imzalanmış sazişlər təxminən 6 QVt əlavə günəş və külək enerjisi gücünün yaradılmasını nəzərdə tutur. Bu planlarla Azərbaycan ilk Qlobal Baxışın müəyyən etdiyi ambisiyanı daha da irəli aparmağa hazırdır. Həmin ambisiya 2030-cu ilə qədər qlobal bərpa olunan enerji gücünün üç dəfə artırılmasını nəzərdə tutur. Biz ənənəvi enerji istehsalçılarının yaşıl və dayanıqlı gələcəyin öncüllərinə çevrilə biləcəyini nümayiş etdirmək əzmindəyik. Bütün bu elementlər Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin uzunmüddətli strateji baxışına əsaslanır", - deyə Ceyhun Bayramov vurğulayıb.

**Azərbaycanın sülh prosesinə yanaşması dəyişməzdir**

İndiki mərhələdə Azərbaycanın gündəliyinin ən vacib məsələlərindən biri sülh prosesi ilə bağlıdır. Məhz ölkəmizin, şəxsən Prezident İlham Əliyevin böyük səyləri sayəsində Azərbaycanla Ermənistan arasında tənzimləmə prosesi ötən ilin avqust ayında Vaşinqtonda yekun sülh sazişinin paraflanmasınadək irəliləyib. Hazırda regionda real sülh var və etimad quruculuğu istiqamətində ardıcıl addımlar atılır. Ceyhun Bayramov jurnalistlərə müsahibəsində bildirib ki, tarixi Vaşinqton sammitində çox mühüm və tarixi sənədlər qəbul edildi, vacib bəyanatlar səsləndirildi. Prezident İlham Əliyev Vaşinqton sammitindəki çıxışı zamanı Azərbaycan üçün artıq sülh dövrünün başladığını bəyan etdi. Sonrakı proseslər və Azərbaycan tərəfinin atdığı addımlar da bunu əyani şəkildə sübut etdi.

Nazir ötən il qəbul edilmiş birgə bəyanatda əksini tapan məsələlərin və Ermənistan tərəfinin verdiyi bəyanatların göz qabağında olduğunu qeyd edərək deyib: "Sülh sazişi barədə danışıqların müəyyən bir mərhələsində, avqustda bu prosesin başa çatması gözlənilirdi. Lakin gerçək addımların atılması, konstitusiyanın dəyişdirilməsi və yeni konstitusiyanın qəbul edilməsi tələb olunurdu. Bütün bunların fonunda bu prosesdə həm Azərbaycan ictimaiyyətinin, həm də dünya ictimaiyyətinin gözlədiyi mövqeyi eşitdik".

Nazir, xüsusilə ötən dövrdə Ermənistanda keçirilən parlament seçkiləri ərəfəsində belə bəyanatların verildiyini diqqətə çatdıraraq seçkilərdən sonra Ermənistan Baş nazirinin öz çıxışlarında yenidən ilin sonuna həmin konstitusiya prosesinə dair gözləntilərin olduğunu qeyd etdiyini söyləyib.

C.Bayramov bu addımların atılması ilə yeni bir mərhələyə keçildiyini, Ermənistanın bu öhdəliklərə riayət etməsi prosesində müsbət gözləntilər olduğunu qeyd edib. "Bizim yanaşmamız dəyişməz olaraq qalır. Prosesin davam etməsi və sülh sazişinin imzalanması üçün imkanlar mövcuddur", - deyə o əlavə edib.

*Mübariz ABDULLAYEV*

# Azərbaycanın yəhudi icmasına



Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının əlamətdar bayramlarından olan Roş ha-Şana münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycan tarixən müxtəlif sivilizasiyaların qovuşduğu məkan olmuş, burada ayrı-ayrı xalqların və etiqadların nümayəndələri arasında qarşılıqlı hörmət və etimada, dostluq və qardaşlığa əsaslanan nümunəvi ictimai münasibətlər formalaşmışdır.

Müasir Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsin fundamental insan haqları və azadlıqları üçün demokratik-hüquqi şərait təmin edilmişdir. Cəmiyyətimizdə yüz illərlə hökm sürən etnik-dini tolerantlıq mühitində yəhudi icması milli-mənəvi dəyərlərini, dil və mədəniyyətini qoruyub-saxlamaqla, böyük inkişaf və tərəqqi mərhələsini yaşayan ölkəmizin sosial-mədəni həyatında yaxından iştirak edir, vətəndaş həmrəyliyinin möhkəmlənməsinə özünəməxsus töhfə verir .

Yeniliyin, mənəvi saflığın, xeyirxahlıq və həmrəylik duyğularının rəmzi olan Roş ha-Şana münasibətilə bir daha hər birinizə bayram təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 10 sentyabr 2026-cı il**

# Qeyri-neftə əsaslanan inkişaf göstəriciləri

## Yanvar-avqust aylarında ÜDM 1,2 faiz artıb

2026-cı ilin yanvar-avqust aylarında Azərbaycanda iqtisadi sektorda müsbət dinamika meyilləri qeydə alınıb. Ölkənin əsas makroiqtisadi göstəricisi olan ümumi daxili məhsul (ÜDM) 87,7 milyard manat təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. İqtisadiyyatın əlavə dəyər potensialının formalaşmasında qeyri-neft sektoru yenə də əsas drayver rolunu oynayıb. Belə ki, neft-qaz sektoru üzrə ÜDM istehsalı 26,2 milyard manata yaxın olmaqla ötən ilin analoji dövrünə nisbətən 0,8 faiz azalsa da, qeyri-neft-qaz sektoru üzrə ÜDM istehsalı 61,5 milyard manat təşkil etməklə illik müqayisədə 2,1 faiz artıb.

ÜDM-in strukturunda sənaye məhsulu 44,6 milyard manat, kənd təsərrüfatı məhsulu 2,6 faiz artaraq 10,1 milyard manat, nəqliyyat bölməsi 8,7 faiz artaraq 10,9 milyard manat, rabitə 10,7 faiz yüksələrək 2,8 milyard manat təşkil edib. Əlavə dəyərin tərkibində digər xidmət sahələrinin payı və məhsula və idxala xalis vergilərə düşən ÜDM-in 1həcmi də yüksəlib.

### Qeyri-neft sənayesində əlavə dəyər yüksəlib

ÜDM-in əsas drayveri və ağırlıq mərkəzi qeyri-neft sektorunun payına düşüb. Belə ki, əlavə dəyərin təxminən 62 milyard manatı qeyri-neft mənbələrinin üzərində cəmləşib ki, bu da faiz ifadəsilə 70 faizdən çoxdur. ÜDM-də əsas əlavə dəyər yaradan sahələrdən biri olan sənaye sektorunun qeyri-neft bölməsində isə artım əvvəlki aylarla müqayisədə daha da böyüyüb. Belə ki, qeyri-neft sənayesində 5,4 faiz artımla 14,6 milyard manat məbləğində sənaye məhsulu istehsal edilib. Sənayenin emal bölməsində daha çox artım avtomobil, qoşqu və yarımqoşquların istehsalı, əczaçılıq məhsullarının istehsalı, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri, elektrik avadanlıqlarının istehsalı, toxuculuq sənayesində yüksək istehsal qeydə alınıb.

Sənayenin qeyri-neft bölmələrində əlavə dəyər təqribən 4 faizə yaxın artıb. Bu amil də sənayeləşmənin əsas strukturlarının qeyri-neft sütunları üzərində inkişaf etdiyini təsdiqləyir. Xüsusilə də ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərin artmasında sənaye parklarının rolunun artması ümumi qeyri-neft sənayesinin dinamikasını artırır. Həmçinin Hacıqabul Sənaye Məhəlləsinin əsasında Hacıqabul Sənaye Parkının yaradılması, azad ərazilərdəki sənaye vektorlarının, xüsusilə də Ağdam Sənaye Parkındakı 5-dən artıq müəssisənin fəaliyyətə başlaması, həmçinin "Araz Vadisi İqtisadi Zonası"nda rezidentlərin ilk istehsal mallarının tədarükünün başlanması ümumi sənaye potensialının yüksəlməsi və ixracının artmasında öz rolunu göstərməkdədir. Qeyri-neft sənayesinin inkişafı ümumilikdə, neftdənkənar mənbələrin hazırda həm də əsas əlavə dəyər formalaşdıran fiskal sahə olduğunu göstərir.

### 12 milyard manatdan çox investisiya yönəldilib

Cari ilin ötən 8 ayında sərmayə axıcılığı da dayanıqlı xarakter daşıyıb, əsas kapitala 12 milyard 677,8 milyon manat investisiya yönəldilib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 10 faiz çoxdur. Bu dövrdə neft-qaz sektoruna qoyulan sərmayələr 1,4 faiz artıb, eyni zamanda, qeyri-neft sektorunda da aktivlik müşahidə olunub. Qeyri neft-qaz sektoruna investisiya qoyuluşu 8,4 milyard manatı üstələyib. Sektorlar üzrə sənaye, logistika, kənd təsərrüfatı və texnologiya, tikinti, təmir sahələrinə kapital qoyuluşlarında artım baş verib. Əsas kapitala yönəldilmiş investisiyaların 70 faizindəm çoxunu daxili investisiyalar təşkil edib. Xarici investisiyaların həcmi 3 milyard manata bərabər olub.

### Əhalinin gəlirləri və orta aylıq əməkhaqqı artıb

2026-cı ilin ötən 8 ayında ölkədə muzdla çalışan işçilərin sayı təxminən 1 milyard 780 min nəfər olub. Onların orta aylıq nominal əməkhaqqı 7,2 faiz artaraq 1176,7 manat təşkil edib. Əhalinin nominal gəlirləri isə 9,4 faiz artaraq 63,5 milyard manata çatıb. Hesabat tarixində ölkə üzrə istehlak qiymətləri indeksi 5,7 faiz təşkil edib. İnflyasiya səbətində qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 6,8 faiz, qeyri-qida məhsulları üzrə 3,6 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 5,7 faiz artım qeydə alınıb. Ümumilikdə, bu dövrdə əhalinin gəlirləri inflyasiyanı üstələməklə insanların sosial rifahında əhəmiyyətli rol oynayıb.

Qeyd edilən müddətdə xarici dövlət borcu 4 milyard 559,5 milyon dollar təşkil etməklə 7,8 faiz azalıb. İqtisadiyyata kredit qoyuluşları 12,9 faiz artaraq 34,1 milyard manat təşkil edib. Fiziki şəxslərin banklardakı əmanətlərində isə 15,8 faiz artım qeydə alınıb, həmin sektor üzrə cəmi depozitlərin həcmi 17 milyard 896,7 milyon manata bərabər olub.

Qeyd edilən dövrdə ticarət dövriyyəsində dinamika müşayiət edilib. Azərbaycanın ticarət dövriyyəsinin həcmi 6,9 faiz artaraq 30 milyard dollar təşkil edib. Belə ki, ixracın dəyəri 39,1 faiz artaraq 20 milyard 136 milyon dollar, o cümlədən qeyri-neft-qaz ixracı 2,8 dəfə artaraq 5,9 milyard dollar olub. İdxalın dəyəri isə 27,4 faiz azalaraq 9,8 milyard dollar təşkil edib. Nəticədə xarici ticarətdə 10 milyard dollardan çox müsbət saldo qeydə alınıb.




### Qeyri-neft sektorunun ÜDM-də payı 80 faizə yaxınlaşır

Cari ilin 8 aylıq makroiqtisadi göstəriciləri təsdiqləyir ki, ölkə iqtisadiyyatının inkişafında ağırlıq mərkəzi tamamilə qeyri-neft sektorunun üzərinə transformasiya olunmaqdadır və hökumətin neft ÜDM-dən qeyri-neft ÜDM-ə keçid strategiyası özünü doğrultmaqdadır. Hökumətin yaxınmüddətli iqtisadi inkişaf ssenarilərinə əsasən, neft-qaz sektorunun tədricən daralacağı şəraitdə iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft gəlirləri olacaq.

İqtisadiyyat Nazirliyi tərəfindən bugünlərdə yenilənmiş proqnozlara əsasən, 2026-cı ilin sonunda ÜDM-in real ifadədə artımı 1,7 faiz olmaqla 138 milyard manata çatacağı gözlənilir. Qeyri-neft ÜDM-nin real ifadədə artımı 3,1 faiz olmaqla 100 milyard manata çatacağı gözlənilir. İlin əvvəli ilə gözləntidə tikinti və turizm sektoru üzrə nəzərdə tutulandan aşağı artım templərinin fərz olunması ÜDM-in cüzi azalmasına səbəb olacaq. Bunun nəticəsində əvvəlki proqnoza nisbətən qeyri-neft-qaz sektoru üzrə ÜDM-in real artım tempinin 5 faizdən 3,1 faizə enəcəyi ehtimal olunur. Ancaq bütün bunlara baxmayaraq, ölkədə ilin sonunda yaradılacaq əlavə dəyərin 74-75 faizi qeyri-neft mənbələrinin üzərində cəmləşəcək. Bu, qeyri-neft sektorunun yenə də iqtisadi-fiskal bölmələrinin əsas drayveri olacağını yəqinləşdirir.

Ortamüddətli Xərclər Çərçivəsi sənədində və İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş proqnoz icmalına əsasən, 2027-ci ildə ÜDM-in tərkibində qeyri-neft/qaz sektorunun payının 78,7 faizə, neft-qaz sektorunun payının isə 21,3 faizə bərabər olacağı proqnozlaşdırılır. Dəyər ifadəsi ilə qeyri-neft ÜDM-nin 106,8 milyard manata qədər artacağı və real artım tempinin 4,6-5 faiz intervalında olacağı gözlənilir. 2029-cu ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payı daha da artaraq 80 faizə çatacağı fərz olunur.

*E.CƏFƏRLİ*

# Vahid ölkə nümayəndəliyi

## Dünya Bankı Azərbaycanla əməkdaşlığın yeni modelinə keçir

İqtisadiyyat naziri Mikayıl Cabbarovun Dünya Bankının (DB) Cənubi Qafqaz üzrə regional direktoru Roland Prays ilə görüşündə Azərbaycanla bank arasında əməkdaşlığın cari vəziyyəti, reallaşdırılan layihələr və yeni layihə təşəbbüsləri nəzərdən keçirilib. KOB-ların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, iqtisadi artımın və iqtisadiyyatın şaxələndirilməsinin yeni imkanlarının araşdırılması istiqamətində Dünya Bankı ilə əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Bu sahələrdə birgə təşəbbüslərin Azərbaycanda özəl sektorun inkişafına və dayanıqlı iqtisadi artımın dəstəklənməsinə töhfə verəcəyi qeyd olunub.

Dünya Bankı Qrupunun Azərbaycanda vahid ölkə nümayəndəliyi modelinə keçidi nəzərdə tutulur ki, bu, tərəfdaşlığın daha səmərəli və əlaqələndirilmiş şəkildə inkişafına imkan yaradacaq. Bankın missiyası KOB-ların maliyyələşdirilməsi imkanlarının artırılması, daxili və beynəlxalq bazarlara çıxışının gücləndirilməsi, İş yerləri və İqtisadi Artım üçün Maliyyə Əlçatanlığı (FINGROW) çərçivəsində rəqəmsal ödənişlərin təşviqi, maliyyə inklüzivliyinin dərinləşdirilməsi, kredit təminatı mexanizminin təkmilləşdirilməsi prosesinə və digər islahatlara institusional dəstək verməyə hazır olduğunu bəyan edib.



### Tərəfdaşlığın yeni mərhələsi - Ölkə Tərəfdaşlıq Çərçivəsi

Qeyd edək ki, Azərbaycan hökuməti Dünya Bankı ilə etibarlı və uzunmüddətli əməkdaşlıq strategiyası çərçivəsində qarşıdakı illərə dair yeni hədəfləri müəyyənləşdirib. DB ölkəmizin inkişaf prioritetlərinə uyğun olaraq Ölkə Tərəfdaşlıq Çərçivəsi hazırlanıb. Yeni çərçivə növbəti beş ildə Azərbaycan ilə DB arasında strateji münasibətlərin əsas istiqamətlərini müəyyən etməklə ölkəmizin daha yaşıl və inklüziv iqtisadiyyata keçidini dəstəkləməyi hədəfləyir. Azərbaycanın yeni inkişaf prioritetlərini və çağırışlarını əks etdirən sənəd Dünya Bankı ilə ölkəmizin əməkdaşlığının yeni yol xəritəsi hesab edilir və uzunmüddətli strateji prioritetlərinə və regional və qlobal sınaqların fonunda qısa, orta və uzunmüddətli ehtiyaclara əsaslanır.

Sənədin əsas fundamental istiqamətləri neft və qaz gəlirlərindən asılılığın azaldılması və qeyri-neft mənbələrinin sütunları üzərində dayanıqlı iqtisadi artımların təmin edilməsi, şaxələndirilmiş gəlirlərin insan kapitalına yönəldilməsi və sosial rifahın yaxşılaşdırılması, fiziki infrastruktur və daha güclü institutlara investisiya yatırımlarının artımı yolu ilə ölkənin xarici şoklara dayanıqlığının gücləndirilməsindən ibarətdir. Ümumilikdə, ÖTÇ-nin əsas məqsədi və qayəsi idarəçilik, insan kapitalı və kommunikasiya bağlantılarının əlaqələndirilməsi və insanların ortaq rifahının təşviqindən ibarətdir.

### Milli Prioritetlər sənədinə uyğun birgə hədəflər

DB ilə Azərbaycan arasında əməkdaşlığın gündəliyində iqlim dəyişikliklərinə qarşı mübarizə, "yaşıl iqtisadiyyat" və "yaşıl enerji" sahəsində yeni layihələrin icrası da dayanır. Dünya Bankı Qrupunun əsas maliyyə strukturlarından biri olan Beynəlxalq Maliyyə Korporasiyası arasında imzalanmış Azərbaycanda bərpaolunan enerji sahəsinin inkişafı məqsədi ilə dənizdə külək enerjisi resursundan istifadə üzrə əməkdaşlığa dair anlaşma memorandumu bu sahədə ilkin sərmayə proqramı hesab edilə bilər.

Bank "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in 5-ci istiqaməti olan "təmiz ətraf mühit və yaşıl artım ölkəsi" hədəfinin reallaşmasına töhfə verəcəyini bəyan edib. Ölkəmizdə səfərdə olan Dünya Bankının nümayəndə heyəti ilə bir müddət əvvəl keçirilən görüşdə COP29 və iqlim maliyyələşdirməsi üzrə dair tərəfdaşlıq imkanları barədə də müzakirə aparılıb. Bankın Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Antonella Bassani qeyd edib ki, ölkəmizdə enerji keçidinin bərpa olunan enerji və enerji səmərəliliyi komponentlərinə Dünya Bankının dəstəyinin artırılması, COP29 tədbiri ilində Azərbaycanın yaşıl sektorlarına sərmayə qoyuluşları nəzərdən keçiriləcək və bankın donorluğu təmin olunacaq.

### "Yaşıl iqtisadiyyat" quruculuğuna dəstək

DB Azərbaycanda 760 MVt gücündə Bankə və Biləsuvar günəş enerjisi layihələrinin enerji sisteminə qoşulması, günəş panelləri infrastrukturunun genişləndirilməsi, "yaşıl hidrogen" istehsalı və digər bərpa olunan sahələrə investisiyaların qoyuluşunda açıq olduğunu bəyan edib. Ümumilikdə, Dünya Bankı 2027-ci ilədək ölkəmizdə 8 külək və Günəş elektrik stansiyalarının qurulması və enerji sisteminə inteqrasiyası məqsədilə maliyyə dəstəyini göstərəcək. Həmçinin işğaldan azad olunmuş ərazilərdə bərpaolunan enerji mənbələrinə sərmayələrin yönəldilməsi, "ağıllı şəhər və ağıllı kənd" konsepsiyalarının tətbiqində "yaşıl texnologiyalar"ın və "yaşıl enerji zonası" layihələrinin icrasında da yaxından iştirak etmək marağını ifadə edib.

DB, həmçinin bərpaolunan enerjinin ixracında və regional "yaşıl enerji" dəhlizinin yaradılmasında da maliyyə təminatçısı olmaq niyyətini bəyan edib. "Xəzər-Qara dəniz-Avropa" yaşıl enerji dəhlizinin, növbəti illərdə dənizdə külək enerjisi potensialının artırılması üzrə əməkdaşlığın isə Azərbaycanın "yaşıl enerji"nin təchizatçısı olmaq niyyətini bəyan edib. Bankın TransXəzər "yaşıl enerji" dəhlizinin maliyyə təchizatçısı kimi donorluq imkanları da istisna deyil.

Beləliklə, Dünya Bankı ilə icra olunan yeni Ölkə Tərəfdaşlıq Çərçivəsi və digər layihə təşəbbüsləri Azərbaycanın iqtisadi dayanıqlılığının möhkəmləndirilməsinə, müxtəlif sahələrdə islahatların və maliyyə resurslarının səmərəli idarə edilməsinin təşviq edilməsinə və maliyyə inklüzivliyinin artırılmasına töhfə verəcək.

*E.CƏFƏRLİ*

# Yeni reallıqlardan irəli gələn hədəflər uğurla reallaşdırılır





Sentyabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Ağdaş rayon təşkilatının IX konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Ağdaş rayon təşkilatının sədri Əlişah Rəcəbov hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolu Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən böyük əzmkarlıq və ardıcıllıqla davam etdirilir. Vurğulanıb ki, YAP Ağdaş rayon təşkilatı fəaliyyətində Ulu Öndər Heydər Əliyevin zəngin siyasi irsinin, dövlətçilik fəlsəfəsinin və milli ideyalarının təbliğinə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mahiyyətinin ictimaiyyətə çatdırılmasına xüsusi əhəmiyyət verir.

Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Orxan Hüseynzadə çıxış edərək diqqətə çatdırıb ki, Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında müstəsna rola malik olan, xalqımızın böyük etimadını qazanan siyasi qüvvədir: “Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yol müasir Azərbaycanın uğur salnaməsinin mühüm hissəsidir”.

YAP İdarə Heyətinin üzvü Amin İsmayılov isə bildirib ki, prinsipləri, amalları milli mənafelərə əsaslanan, təməli sağlam olan, daim Azərbaycan xalqının maraqlarını müdafiə edən Yeni Azərbaycan Partiyası bundan sonra da Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edəcək və ölkəmizin strateji hədəflərinə çatmasına öz töhfəsini verəcəkdir.

Çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev xalqımızın Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ətrafında sıx birləşərək qarşıda duran strateji hədəflərin reallaşdırılması naminə həmrəylik nümayiş etdirdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin dövlətçilik irsinin gənc nəslə aşılanması, eləcə də Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kursun cəmiyyətdə geniş təbliği fəaliyyətin prioritet istiqamətləridir. O bildirib ki, partiyanın VII qurultayından sonra yerli strukturların iş mexanizminin effektivliyinin artırılması məqsədilə ardıcıl addımlar atılıb.

Tədbirdə Rabitə işçiləri ərazi partiya təşkilatının sədri Nicat Heydərov, Mərkəzi Aran Regional Mədəniyyət idarəsi ərazi partiya təşkilatının sədr müavini Turanə Şıxalıyeva və partiyanın gənc fəalı Nəzrin Hüseynzadə çıxış ediblər.

Konfransda YAP Ağdaş rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Xalqımız tarixi zəfərlərin qürurunu yaşayır




Sentyabrın 10-da Yeni Azərbaycan Partiyası (YAP) Xocavənd rayon təşkilatının XI konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Xocavənd rayon təşkilatının sədri Vüsal Hüseynov hesabat məruzəsi ilə çıxış edib. O diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasi xətt Azərbaycanın davamlı inkişafının əsas təminatçısıdır. V.Hüseynov vurğulayıb ki, qazanılan möhtəşəm nailiyyətlər müasir tariximizin şanlı səhifələrini təşkil edir: “Dövlət başçısının qətiyyətli siyasəti sayəsində Azərbaycan bu gün beynəlxalq müstəvidə söz sahibi olan, nüfuzlu tərəfdaş kimi qəbul edilən qüdrətli bir ölkədir”.

YAP Xocavənd rayon təşkilatının ötən müddət ərzində sıralarını genişləndirdiyini vurğulayan V.Hüseynov qeyd edib ki, qazanılan uğurlarla yanaşı, növbəti mərhələdə də qarşımızda məsuliyyətli vəzifələr dayanır.

Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxış edərək diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin liderliyi ilə dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, cəmiyyətin rifahının yüksəldilməsi, milli maraqlarımızın qorunması, eləcə də Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin artırılması istiqamətində məqsədyönlü addımlar atılır. İcra başçısı qeyd edib ki, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən tarixi Qələbə ölkəmizin dünya miqyasındakı mövqeyini daha da möhkəmləndirib: “Xalqımız tarixi zəfərlərin qürurunu yaşayır. Bu böyük nailiyyətlərin qazanılmasında Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla irəliləyən Yeni Azərbaycan Partiyasının xüsusi payı var”.

Çıxış edən YAP İdarə Heyətinin üzvü Bayram Aslanov bildirib ki, Yeni Azərbaycan Partiyası fəaliyyətə başladığı ilk gündən hər zaman dövlətimizin ali maraqlarını ön planda tutub. Onun sözlərinə görə, 1992-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə partiyanın təsis olunması və qısa müddətdən sonra hakimiyyətə gəlişi Azərbaycanı dərin siyasi böhrandan və parçalanmaqdan xilas edərək inkişaf yoluna çıxardı: “Bu gün YAP azərbaycançılıq məfkurəsini uca tutaraq cəmiyyətdə milli həmrəyliyin möhkəmlənməsinə dəyərli töhfələr verməkdədir”.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə çıxışında Yeni Azərbaycan Partiyasının milli maraqlara əsaslanan siyasi mövqeyindən, dövlətçilik ənənələrinin möhkəmləndirilməsindəki rolundan və qarşıya qoyulan vəzifələrin icrasından danışıb. O vurğulayıb ki, partiya ötən illər ərzində cəmiyyətin böyük inamını qazanaraq bu etimadı əməli fəaliyyəti ilə doğruldub.

Daha sonra partiya fəalı Telli Aliyeva və Muğanlı kənd ərazi partiya təşkilatının sədri Asim Rüstəm çıxış ediblər.

Konfransda YAP Xocavənd rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Yeni, müasir və müstəqil Azərbaycan reallığı




Sentyabrın 10-da Yeni Azərbaycan Partiyası Şahbuz rayon təşkilatının XII konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransa YAP Şahbuz rayon təşkilatının sədri Nicat Ələkbərov hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, Azərbaycanın bugünkü inkişaf mənzərəsi Ulu Öndər Heydər Əliyevin siyasi irsinin nə qədər böyük əhəmiyyət daşıdığını bir daha nümayiş etdirir. Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının əsasları müəyyən olunub. Bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində dövlətimizin beynəlxalq nüfuzu artıb, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə nəticələnən tarixi zəfərlər qazanılıb.

Şahbuz Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Rəfael Babayev çıxışında YAP Şahbuz rayon təşkilatının uğurlu fəaliyyətindən, partiya üzvlərinin rayonun ictimai-siyasi həyatında mühüm rolundan bəhs edib. Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi və abadlıq-quruculuq tədbirlərindən danışan RİH başçısı dövlət siyasətinin regionların hərtərəfli inkişafına yönəldiyini, Şahbuzda da əhalinin sosial rifahının yaxşılaşdırılması, infrastrukturun yenilənməsi istiqamətində işlərin davam etdirildiyini vurğulayıb.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov ölkədə həyata keçirilən regional siyasətdən və bölgələrin inkişafı istiqamətində görülən işlərdən danışıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə regionların sosial-iqtisadi potensialının artırılması, əhalinin rifahının daha da yaxşılaşdırılması və müasir infrastrukturun formalaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib. S.Novruzov Yeni Azərbaycan Partiyasının yerli təşkilatlarının dövlət siyasətinin təbliğində mühüm rol oynadığını qeyd edib. Vurğulanıb ki, yeni, müasir və müstəqil Azərbaycan reallığı ölkəmizə tərəqqi və inkişaf vəd edir.

Şəhid anası, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Gülşad Rüstəmova Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasının tarixi əhəmiyyətindən danışıb. O, Vətən müharibəsində və sonrakı dövrdə Azərbaycan xalqının göstərdiyi birlik və həmrəyliyin şanlı Qələbənin əldə olunmasında əsas amillərindən biri olduğunu qeyd edib. G.Rüstəmova şəhid ailələrinə və qazilərə göstərilən dövlət qayğısının ölkəmizdə sosial siyasətin prioritet istiqamətlərindən olduğunu diqqətə çatdırıb.

Partiya veteranı, Şahbuz Rayon Veteranlar Şurasının sədri Məhərrəm İsmayılov, YAP Naxçıvan Regional Mədəniyyət İdarəsinin Şahbuz rayon sektoru ərazi partiya təşkilatının sədri Elvin Səfərov Yeni Azərbaycan Partiyasının yaranması və formalaşması prosesində Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərini diqqətə çatdırıblar. Bildirilib ki, partiya ötən illər ərzində böyük inkişaf yolu keçərək xalqın etimadını qazanıb və aparıcı mövqeyə yüksəlib.

YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə əlaqədar iş şöbəsinin müdir müavini Asif İmaməliyevə partiyanın VII qurultayından sonra müəyyənləşdirilmiş yeni vəzifələrə toxunub. Qeyd olunub ki, YAP Şahbuz rayon təşkilatı hesabat dövründə fəaliyyətini qarşıya qoyulmuş vəzifələrə uyğun quraraq ideoloji fəaliyyətin səmərəliliyinin artırılması istiqamətində ardıcıl iş aparıb.

Konfransda YAP Şahbuz rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Azərbaycan parlaq nailiyyətlər qazanır, milli gücümüz günbəgün artır




Sentyabrın 10-da Yeni Azərbaycan Partiyası (YAP) Şəmkir rayon təşkilatının X konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Şəmkir rayon təşkilatının sədri Zamir Güvəndiyev hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, YAP Şəmkir rayon təşkilatının fəaliyyəti partiyanın qarşıya qoyduğu vəzifələrə uyğun olaraq təşkilati işin gücləndirilməsi, üzvlərin fəallığının artırılması və ictimai-siyasi proseslərdə iştirakın genişləndirilməsi istiqamətində qurulub. “Təşkilat hesabat dövründə qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirməyə çalışıb. Fəaliyyətimizdə ideya və əqidə birliyi, partiya üzvlərinin nizam-intizamı xüsusi diqqət mərkəzində saxlanılır”, - deyə Z.Güvəndiyev söyləyib.

Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev bildirib ki, Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının cəmiyyətdə yüksək nüfuzunun əsas göstəricilərindən biri milli maraqların ifadəçisi kimi çıxış etməsidir. O qeyd edib ki, partiyanın keçdiyi şərəfli yol xalq-iqtidar birliyinin möhkəm təməllər üzərində qurulduğunu və bu birliyin sarsılmaz xarakter daşıdığını təsdiqləyir. R.Tağıyev vurğulayıb ki, Azərbaycan xalqı Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasi kursunu dəstəkləyir”.

Milli Məclisin deputatı Nurlan Həsənov çıxışında qeyd edib ki, Yeni Azərbaycan Partiyası fəaliyyətində ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün qorunması, beynəlxalq aləmdə layiqli yer tutması kimi əsas milli prioritetlər istiqamətində qurmaqla cəmiyyətdə yüksək nüfuza malikdir: “Azərbaycan parlaq nailiyyətlər qazanır, milli gücümüz günbəgün artır. Gələcəyə doğru inamla irəliləyən Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha da qüdrətlənməsi istiqamətində ciddi səylər göstərir. Əldə olunan uğurların siyasi müstəvidə möhkəmləndirilməsində Yeni Azərbaycan Partiyasının mühüm xidmətləri var”.

Gənclər və İdman Sektoru ərazi partiya təşkilatının sədri Pərvin Gözəlov, partiya fəalı Elvira Allahverdiyeva və Yeni-Həyat kənd ərazi partiya təşkilatının sədri Qətibə Məmmədova çıxış ediblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov bildirib ki, Yeni Azərbaycan Partiyası bugünədək xalqın və dövlətimizin taleyində mühüm rol oynayıb və Azərbaycanın güclü dövlət kimi təşəkkül tapmasında böyük xidmətlər göstərib: “Bu gün partiyamızın gücü Ulu Öndər Heydər Əliyev ideyalarından və Prezident İlham Əliyevin uğurlu siyasətindən qaynaqlanır. Prezident İlham Əliyev ölkəmizin nüfuzunu artırmaqla onu dünyada müstəqil xarici siyasət yürüdən dövlət və etibarlı tərəfdaş kimi tanıdıb. Tarixi Zəfərimizdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan dövləti Liderimiz İlham Əliyevin rəhbərliyi ilə parlaq gələcəyə doğru daha inamla irəliləməkdədir”.

Konfransda rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edilib və YAP-ın VIII qurultayına nümayəndələr seçilib.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP-ın fəaliyyəti milli maraqlarımızın qorunmasına hədəflənib







Sentyabrın 10-da Yeni Azərbaycan Partiyası (YAP) Zərdab rayon təşkilatının X konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda hesabat məruzəsi ilə çıxış edən YAP Zərdab rayon təşkilatının sədri İlkin Əliyev bildirib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması müasir Azərbaycan tarixinin ən əlamətdar hadisələrindən biridir. Onun sözlərinə görə, uğurlu fəaliyyəti ilə partiya ölkəmizdə siyasi mədəniyyət nümunəsi formalaşdırıb.

Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Mərdan Camalzadə çıxış edərək bildirib ki, Ümummilli Lider Heydər Əliyevin ideyalarından güc alan Yeni Azərbaycan Partiyası yeni uğurlara imza atır. O, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Zərdab rayonunun sosial-iqtisadi inkişafı istiqamətində mühüm nailiyyətlərin əldə edildiyini diqqətə çatdırıb.

YAP İdarə Heyətinin üzvü Əfsun Sucayev çıxışında Yeni Azərbaycan Partiyasının ötən dövrdə böyük inkişaf yolu keçərək mütəşəkkil siyasi qüvvəyə çevrildiyini bildirib. Onun sözlərinə görə, YAP-ın fəaliyyəti milli maraqların qorunmasına hədəflənib.

Tədbirdə Zərdab rayon Əlvənd kənd tam orta məktəbinin direktoru, Vətən müharibəsi iştirakçısı Elvin Xəlilov çıxışında Yeni Azərbaycan Partiyasının ölkəmizin inkişafına və dövlət siyasətinin həyata keçirilməsinə verdiyi töhfələrdən danışıb.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev YAP Zərdab rayon təşkilatının fəaliyyətini müsbət dəyərləndirib. O qeyd edib ki, xalqımızın Ümummilli Lideri, Yeni Azərbaycan Partiyasının qurucusu Heydər Əliyevin irsinin və Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin cəmiyyətdə geniş təbliği mühüm önəm kəsb edir.

Konfransda YAP Zərdab rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Tərəqqi və Zəfər yolunda...







Sentyabrın 10-da Yeni Azərbaycan Partiyası (YAP) Quba rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Quba rayon təşkilatının sədri Fidan Hüseynova hesabat məruzəsi ilə çıxış edib. O, rayon təşkilatının fəaliyyətinin partiyanın qarşıya qoyduğu vəzifələrə uyğun qurulduğunu, ərazi partiya təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi, üzvlərlə işin daha da təkmilləşdirilməsi, qadın və gənclərin ictimai-siyasi fəallığının artırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib.

Quba Rayon İcra Hakimiyyətinin başçısı İlqar Mahmudov çıxışında Qubada həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi layihələrdən, əhalinin rifahının yüksəldilməsi istiqamətində görülən işlərdən danışıb. O, Azərbaycanın tərəqqi və Zəfər yolunda inamla irəlilədiyini, ölkədə həyata keçirilən dövlət siyasətinin bölgələrin inkişafına mühüm imkanlar yaratdığını, Qubada da bu siyasətin ardıcıl şəkildə həyata keçirildiyini vurğulayıb. Bildirilib ki, YAP Quba rayon təşkilatı ictimai-siyasi proseslərdə fəal iştirak edir, dövlət siyasətinin mahiyyətinin ictimaiyyətə çatdırılmasına öz töhfəsini verir.

Milli Məclisin deputatı Əlibala Məhərrəmzadə Yeni Azərbaycan Partiyasının Azərbaycanın ictimai-siyasi həyatındakı rolundan bəhs edib. O qeyd edib ki, partiyanın milli maraqlara əsaslanan siyasi mövqeyi ölkənin davamlı inkişafına və dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə xidmət edir. Deputat YAP Quba rayon təşkilatının hesabat dövründə fəallığı ilə seçildiyini, qarşıya qoyulan vəzifələrin icrasında partiya üzvlərinin birgə fəaliyyətinin mühüm rol oynadığını bildirib.

Milli Məclisin deputatı Müşfiq Məmmədli Azərbaycanın son illərdə əldə etdiyi siyasi-iqtisadi və hərbi nailiyyətlərdən danışıb. O, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində qlobal arenada dövlətimizin beynəlxalq mövqeyinin daha da gücləndiyini, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam təmin olunduğunu vurğulayıb. Deputat bildirib ki, bu uğurların əldə olunmasında xalq-iqtidar birliyi ilə yanaşı, Yeni Azərbaycan Partiyasının ictimai-siyasi proseslərdə fəal mövqeyi də xüsusi rol oynayır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının baş müəllimi Elza Orucova təhsil müəssisələrində vətənpərvərlik, dövlətçilik və milli ideologiya prinsiplərinin təbliğinin gənclərin ictimai fəallığının artırılmasına müsbət təsir göstərdiyini bildirib.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Orxan Bayramov Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra görülən işlərdən və qarşıda duran əsas vəzifələrdən danışıb.

Konfransda YAP Quba rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Bütün qələbələrimiz Heydər Əliyev yolu ilə bağlıdır







Sentyabrın 10-da Yeni Azərbaycan Partiyası (YAP) Balakən rayon təşkilatının XIII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Balakən rayon təşkilatının sədri Azad Balayev hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, Yeni Azərbaycan Partiyası tarixən böyük nailiyyətlər əldə edib. 2021-ci il martın 5-də keçirilən VII qurultay partiyanın fəaliyyətində yeni mərhələnin başlanğıcı olub. Bu baxımdan, hesabat dövrü YAP Balakən rayon təşkilatı üçün siyasi fəaliyyətin daha çevik və məqsədyönlü qurulduğu mərhələ kimi xarakterizə oluna bilər. A.Balayev "Azərbaycanın əldə etdiyi bütün uğurların əsasında Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyaları dayanır", - deyə vurğulayıb.

Çıxış edən Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev YAP-ın iqtidar partiyası olaraq Azərbaycanın hərtərəfli inkişafında rolunu xüsusi vurğulayıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən regional inkişaf proqramlarının Balakəndə də uğurla icra olunduğunu bildirib. Bu proqramların icrası nəticəsində rayonun əldə etdiyi nəticələr barədə məlumat verib.

Milli Məclisin deputatı Nəsib Məhəmməliyev çıxışında YAP-ın ümumxalq partiyası olaraq ölkənin ictimai-siyasi həyatında fəal iştirakı, cəmiyyətin müxtəlif təbəqələrini vahid məqsədlər ətrafında birləşdirməsi və dövlətçilik dəyərlərinin möhkəmləndirilməsinə verdiyi töhfələri diqqətə çatdırıb. "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Biz birlikdə güclüyük" fikri dövlət siyasətinin əsas fəlsəfəsinə çevrilərək siyasi münasibətlərdə də öz əksini tapır", - deyə deputat qeyd edib. Onun sözlərinə görə, dövlətimizin başçısının müdrik siyasəti ölkəmizin ərazi bütövlüyü və suverenliyini təmin edib: "Ölkəmizdə formalaşmış yeni siyasi konfiqurasiya nəticəsində ümummilli məsələlərdə vahid mövqe müəyyənləşib".

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xəqani Tağıyev Yeni Azərbaycan Partiyasının VII qurultayından sonrakı fəaliyyətində müasir çağırışlara uyğun yeni yanaşmaların tətbiq olunduğunu vurğulayıb, bu istiqamətdə əldə edilən nəticələrə diqqəti cəlb edib. Onun sözlərinə görə, qurultayda qəbul edilmiş qərarlar yerli təşkilatların fəaliyyətinə də əhəmiyyətli təsir göstərib.

Konfransda YAP Balakən rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Hər bir azərbaycanlı öz qüdrətli dövləti ilə fəxr edir!







Sentyabrın 10-da Yeni Azərbaycan Partiyası (YAP) Biləsuvar rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyası müasir Azərbaycanın siyasi sisteminin inkişafına mühüm töhfələr verib. Onun sözlərinə görə, YAP-ın 2021-ci il martın 5-də keçirilmiş VII qurultayı bütövlükdə müasir Azərbaycanın siyasi həyatında mühüm hadisə olmaqla yanaşı, partiyanın gələcək fəaliyyətinin yeni istiqamətlərinin müəyyənləşdirilməsi baxımından da xüsusi əhəmiyyət daşıyıb.

K.Qurbanlı deyib ki, ölkəmizdə YAP-ın ilk yerli təşkilatı olan Biləsuvar rayon təşkilatı hesabat dövründə öz fəaliyyətini partiyanın Nizamnaməsinə və Proqramına, yerli təşkilatlar haqqında Əsasnaməyə uyğun olaraq qurub.

Çıxış edən Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasətin ölkənin davamlı inkişafına verdiyi töhfələrdən bəhs edib. O, Biləsuvar rayonunda həyata keçirilən abadlıq-quruculuq və sosial-iqtisadi layihələr barədə də ətraflı məlumat verib. Vurğulanıb ki, hər bir azərbaycanlı öz qüdrətli dövləti ilə fəxr edir!

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Elman Nəsirov çıxışında Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan, qazandığı qələbələrdən və siyasi proseslərdəki iştirakından ətraflı bəhs edib. O, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi tarixi nailiyyətlərdən danışıb və bu nailiyyətlərin geniş ictimaiyyət arasında təbliğində partiya üzvlərinin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb.

Tədbirdə Biləsuvar Rayon Ağsaqqallar Şurasının sədr müavini, partiya veteranı Zakir Şahbazov, 7 saylı şəhər ərazi partiya təşkilatının sədri Əlisafa Qəmbərov, partiya fəalı Ceyhun Ağazadə YAP Biləsuvar rayon təşkilatının fəaliyyəti barədə fikirlərini bölüşüblər.

Çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov partiyanın Biləsuvar rayon təşkilatının uğurlu fəaliyyəti, ərazi partiya təşkilatlarında işin təşkili və qarşıda duran vəzifələr barədə danışıb. Onun sözlərinə görə, partiyanın yerli strukturları öz işini müasir çağırışlar əsasında qurmalıdır.

Konfransda YAP Biləsuvar rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Yeni mərhələdə qarşımızda mühüm vəzifələr dayanır




Sentyabrın 10-da Yeni Azərbaycan Partiyası (YAP) Gədəbəy rayon təşkilatının XII konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Gədəbəy rayon təşkilatının sədri Rüstəm Nağıyev hesabat məruzəsi ilə çıxış edib. O, Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan, Ümummilli Lider Heydər Əliyevin siyasi irsindən, partiyanın ölkənin ictimai-siyasi həyatında tutduğu mühüm mövqedən bəhs edib. Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kurs Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Vurğulanıb ki, 2021-ci il martın 5-də keçirilən Yeni Azərbaycan Partiyasının VII qurultayından ötən dövr ərzində partiyanın fəaliyyətində yeni mərhələ başlanıb, təşkilati işin daha da təkmilləşdirilməsi və ərazi partiya təşkilatlarının fəaliyyətinin səmərəli qurulması istiqamətində mühüm addımlar atılıb. Yeni çağırışlar nəzərə alınmaqla YAP Gədəbəy rayon təşkilatının fəaliyyəti də ardıcıl və məqsədyönlü şəkildə təşkil edilib.

Gədəbəy Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Natiq Nağıyev Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında mühüm rolunu vurğulayıb. O, Azərbaycanın əldə etdiyi tarixi nailiyyətlər, ölkədə aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri və regionların sosial-iqtisadi inkişafından bəhs edib. N.Nağıyev YAP Gədəbəy rayon təşkilatının rayonun ictimai-siyasi həyatında fəal iştirak etdiyini bildirərək, təşkilatın gələcək fəaliyyətinə uğurlar arzulayıb.

YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova bildirib ki, Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır. Onun sözlərinə görə, fəaliyyət göstərdiyi dövr ərzində YAP öz Proqram və Nizamnaməsində nəzərdə tutulan vəzifələri layiqincə yerinə yetirib: “Bu baxımdan, Yeni Azərbaycan Partiyasının VII qurultayında qəbul edilən qərarlar partiyanın qarşısında yeni vəzifələr müəyyənləşdirib”.

Konfransda cıxış edən Çobankənd kənd ərazi partiya təşkilatının sədri İlqar Abdullayev və Zəhmətkənd kənd tam orta ümumtəhsil məktəbinin direktor müavini Murad Bayramov Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı misilsiz nailiyyətlər, ölkəmizdə həyata keçirilən genişmiqyaslı abadlıq- quruculuq işləri və yeni dövrün hədəflərindən bəhs ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov bildirib ki, Yeni Azərbaycan Partiyası Gədəbəy rayon təşkilatı hesabat dövründə qarşıya qoyulmuş vəzifələrə uyğun fəaliyyət göstərərək təşkilati işin daha da təkmilləşdirilməsi, ideoloji fəaliyyətin gücləndirilməsi və partiya üzvlərinin fəallığının artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Vurğulanıb ki, yeni mərhələdə qarşımızda mühüm vəzifələr dayanır.

Konfransda YAP Gədəbəy rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Xalq-iqtidar birliyi sabitlik və inkişafın əsas amilidir




Sentyabrın 10-da Yeni Azərbaycan Partiyası (YAP) Qaradağ rayon təşkilatının XIII konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Qaradağ rayon təşkilatının sədri İlqar İlyasov hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, Yeni Azərbaycan Partiyası bütün mərhələlərdə dövlətçilik ənənələrinin inkişafına töhfə verib. Partiyanın 2021-ci ildə keçirilən VII qurultayı bu siyasi təşkilatın fəaliyyətinin müasir çağırışlara uyğun olaraq gücləndirilməsində mühüm rol oynayıb. Həmin siyasi kursa öz töhfəsini vermək məqsədilə YAP Qaradağ rayon təşkilatı da fəaliyyətini gücləndirib. Ərazi partiya təşkilatları və üzvlərlə iş, maarifləndirici və sosial layihələr rayon təşkilatının fəaliyyətinin əsas istiqamətlərini təşkil edib.

Qaradağ Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Emil Abbasov bildirib ki, Azərbaycan dövlətçiliyinin inkişafında Yeni Azərbaycan Partiyasının xüsusi rolu olub. O vurğulayıb ki, çoxsaylı layihə, konfrans, dəyirmi masa və digər tədbirlər rayon təşkilatının fəaliyyətində mühüm yer tutub.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov çıxışında bildirib ki, Yeni Azərbaycan Partiyasının yaranması müasir müstəqil Azərbaycanın şanlı siyasi tarixinin mühüm səhifələrindən biridir. Onun sözlərinə görə, VII qurultaydan sonra beynəlxalq miqyasda fəaliyyətini daha da gücləndirən Yeni Azərbaycan Partiyası təkcə ölkəmizin deyil, regionun ən nüfuzlu siyasi təşkilatına çevrilib. Vurğulanıb ki, Azərbaycan xalqı öz Liderini daim dəstəkləyir və Onun ətrafında sıx birləşib.

Çıxış edən Milli Məclisin deputatı Səbinə Xasayeva qeyd edib ki, Yeni Azərbaycan Partiyası yarandığı ilk gündən ölkəmizdə gedən ictimai-siyasi proseslərdə mühüm rol oynayıb: “Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra iqtidar partiyasına çevrilən YAP ölkəmizin sürətli inkişafına daim öz töhfələrini verib. Onun sözlərinə görə, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı tarixi nailiyyətlər, xüsusilə 44 günlük Vətən müharibəsində əldə edilmiş möhtəşəm Zəfər və 2023-cü ildə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub: “Bu şanlı qələbələr dövlətimizin qüdrətinin, xalqımızın birlik və həmrəylinin, həmçinin tükənməz milli iradəsinin bariz nümunəsidir”.

Məşhur “91-lər”in üzvü Munis Bayramov müstəqilliyin bərpasından sonra ölkədə yaranmış ağır vəziyyəti, iqtisadi böhranı və vətəndaş müharibəsi təhlükəsini xatırladıb. O bildirib ki, məhz belə ağır bir dövrdə Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası qısa müddətdə hakim partiyaya çevrilib və Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni uğurlara imza atır. “Cənubi Qafqazın ən güclü siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının sıralarında bu gün 700 mindən çox üzv birləşib”, - deyə M.Bayramov qeyd edib.

Tədbirdə şəhid anası Fəridə İsmayılova və Lökbatan Tibb Mərkəzinin direktoru, Nizami küçəsi 9 ünvanı üzrə ərazi partiya təşkilatının sədri Elçin Hüseynov çıxış ediblər. Çıxışlarda Prezident, YAP-ın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bundan sonra da misilsiz uğurlar qazanacağına əminlik ifadə olunub.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdir müavini Rəfael Gülməmmədov bildirib ki, fəaliyyət göstərdiyi illər ərzində Yeni Azərbaycan Partiyası öz Proqram və Nizamnaməsində nəzərdə tutulan vəzifələri layiqincə yerinə yetirib: “Bu baxımdan, VII qurultayda Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin verdiyi tövsiyə və tapşırıqlar, qəbul olunmuş qərarlar hər bir partiya üzvü üçün yeni vəzifələr müəyyənləşdirib. Partiya üzvləri həmin vəzifələrin uğurla yerinə yetirilməsi üçün səylə çalışmalı və bu istiqamətdə bilik və bacarığını əsirgəməməlidir”.

Konfransın sonunda YAP Qaradağ rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edilib və YAP-ın VIII qurultayına nümayəndələr seçilib.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Böyük etimad, sonsuz inam




Sentyabrın 10-da Yeni Azərbaycan Partiyası (YAP) Qusar rayon təşkilatının XI konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Qusar rayon təşkilatının sədri Kamran Əmirov hesabat məruzəsi ilə çıxış edərək Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında mühüm rolundan bəhs edib. O bildirib ki, hesabat dövründə YAP Qusar rayon təşkilatı tərəfindən partiyanın qarşıya qoyduğu vəzifələrin icrası, ərazi partiya təşkilatları ilə işin səmərəli təşkili, gənclərin və qadınların ictimai-siyasi fəallığının artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Eyni zamanda, təşkilatın qarşısında duran əsas vəzifələr barədə də məlumat verilib.

Qusar Rayon İcra Hakimiyyətinin başçısı Sahir Məmmədxanov çıxışında qeyd edib ki, Azərbaycan xalqı Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin siyasi kursunu dəstəkləyir. Bu siyasi kurs ölkəmizin davamlı inkişafı, dövlətçilik ənənələrinin möhkəmləndirilməsi və qarşıya qoyulan hədəflərin ardıcıl şəkildə reallaşdırılmasını təmin edib.

Çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov bildirib ki, bu gün dünyada müstəqil, nüfuzlu, qüdrətli və qalib ölkə kimi tanınan müasir Azərbaycanın möhtəşəm uğurlarında siyasi sistemin aparıcı qüvvəsi olan Yeni Azərbaycan Partiyasının mühüm rolu və payı var. Qeyd olunub ki, ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasına cəmiyyətdə göstərilən yüksək etimad onun ölkənin ictimai-siyasi həyatındakı mövqeyini daha da möhkəmləndirir. Eyni zamanda, YAP ölkədə keçirilən bütün seçkilərdə inamlı qələbələr qazanaraq siyasi həyatda avanqard qüvvə olduğunu sübuta yetirib.

Tədbirdə ərazi partiya təşkilatlarının sədr müavinləri Pərvin Eldarov və Kəmalə Qliçova çıxış edərək YAP Qusar rayon təşkilatının fəaliyyətindən, ərazi partiya təşkilatlarında görülən işlərdən və üzvlərin ictimai-siyasi fəallığının artırılması istiqamətində həyata keçirilən tədbirlərdən danışıblar. Çıxışlarda partiya üzvlərinin dövlətçilik ideyalarına sədaqəti və ictimai proseslərdə fəal iştirakı xüsusi vurğulanıb.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Orxan Bayramov isə çıxışında YAP Qusar rayon təşkilatının fəaliyyətini yüksək qiymətləndirib. O, rayon təşkilatının Ümummilli Lider Heydər Əliyevin ideyalarının, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin təbliği istiqamətində uğurla fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Konfransda YAP Qusar rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII Qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Uğurların təməlində xalqın dəstəyi dayanır




Sentyabrın 10-da Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatının XII konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli hesabat məruzəsi ilə çıxış edib. O, təşkilatın fəaliyyətinin qarşıya qoyulmuş vəzifələrə uyğun qurulduğunu, ərazi partiya təşkilatları ilə işin əlaqələndirilməsi, üzvlərin fəallığının artırılması, yeni üzvlərin partiya sıralarına cəlb olunması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib. Qeyd olunub ki, Naxçıvan şəhərində partiyanın ictimai-siyasi proseslərdə fəal iştirakının təmin olunması, ideoloji fəaliyyətin gücləndirilməsi və gənclərlə işin genişləndirilməsi diqqət mərkəzində saxlanılıb.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Anar Babayev Naxçıvan şəhərində həyata keçirilən abadlıq-quruculuq işlərindən, sosial-iqtisadi sahədə əldə olunan nəticələrdən danışıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin Naxçıvanın hərtərəfli inkişafına yeni imkanlar yaratdığını vurğulayıb. Bildirilib ki, şəhərdə sosial infrastrukturun yenilənməsi, əhalinin məşğulluq imkanlarının genişləndirilməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilir. A.Babayev YAP Naxçıvan şəhər təşkilatının ictimai-siyasi fəallığını yüksək qiymətləndirib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında oynadığı roldan və dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə verdiyi töhfələrdən danışıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi tarixi nailiyyətlərin milli həmrəyliyin və məqsədyönlü dövlət siyasətinin nəticəsi olduğunu bildirib. Qeyd olunub ki, ərazi bütövlüyünün və suverenliyin tam bərpası Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri yaradıb. Vurğulanıb ki, partiyanın bundan sonrakı fəaliyyətində də dövlətçilik maraqlarının, milli həmrəyliyin və ictimai fəallığın möhkəmləndirilməsi əsas istiqamətlərdən olacaqdır.

AMEA-nın Naxçıvan Bölməsi ərazi partiya təşkilatının sədri Zeynəb Quliyeva, partiya veteranı Nazim Bayramov, partiya üzvləri Yusif Mirzəzadə və Aygül Xəlilova çıxışlarında Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan, partiyanın formalaşmasında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs edib. Vurğulanıb ki, YAP xalqın böyük etimadını qazanaraq Azərbaycanın ictimai-siyasi həyatında aparıcı siyasi qüvvəyə çevrilib və bu uğurların təməlində xalqın dəstəyi dayanır.

YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə əlaqədar iş şöbəsinin müdir müavini Asif İmaməliyev partiyanın 2021-ci il martın 5-də keçirilən VII qurultayından sonra qazanılan uğurlara və qarşıdakı dövr üçün müəyyənləşdirilən vəzifələrə toxunub. O, siyasi maarifləndirmə işinin, üzvlərin ictimai-siyasi proseslərdə fəal iştirakının sistemli şəkildə təşviq edilməsinin əhəmiyyətini qeyd edib. Bildirilib ki, YAP Naxçıvan şəhər təşkilatı hesabat dövründə fəaliyyətini müəyyənləşdirilmiş istiqamətlər üzrə quraraq təşkilati işin daha da təkmilləşdirilməsi və partiya üzvlərinin fəallığının artırılması sahəsində uğurla fəaliyyət göstərib.

Konfransda YAP Naxçıvan şəhər təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# İftixar Piriyev fenomeni: sənətkar şəxsiyyəti, elmi düşüncəsi və "Qeyri-səlis teatrı" konsepsiyası

*(elmi-publisistik portret)*



**Əziz Ustad İftixar müəllim!**

Yaşadığınız ömrün ötən illəri yalnız zaman ölçüsü deyil, həm də milli teatr sənətinin və yaradıcı düşüncənin inkişafına həsr olunmuş mənalı bir həyat salnaməsidir. Siz aktyor, rejissor, şair, dramaturq, tədqiqatçı-alim, səhnə pedaqoqu və teatr reformatoru kimi çoxşaxəli fəaliyyətinizlə Azərbaycan mədəniyyətinə dəyərli töhfələr vermisiniz. Sənətşünaslıq doktoru, professor, Əməkdar incəsənət xadimi Məryam xanım Əlizadənin sözləri ilə desək: "Bir faiz heç kəsin şübhəsi ola bilməz ki, Siz təpədən-dırnağa teatr adamısınız. Siz əlində qələm olan bir yazarsınız - həm bədii əsərlər - pyeslər, həm də elmi əsərlər... gözəl aktyorsunuz və görünür ki, gözəl də rejissorsunuz...".

Rejissor kimi traktovka verdiyiniz tamaşalar, şeir yaradıcılığınız və qələminizdən çıxan pyeslər yalnız səhnə hadisəsi olaraq qalmır, həm də fəlsəfi düşüncənin, milli-mənəvi dəyərlərin və insan ruhunun bədii təcəssümünə çevrilir. Hər bir əsəriniz sənətin cəmiyyət qarşısındakı missiyasını, insanın daxili aləmini və həqiqət axtarışını özündə əks etdirən estetik hadisə kimi meydana çıxır.

Çoxşaxəli yaradıcılıq yolunuz şəxsiyyətinizi yalnız ayrı-ayrı sənət sahələrinin nümayəndəsi kimi deyil, teatrı, ədəbiyyatı və elmi düşüncəni vahid estetik sistemdə birləşdirən sənətkar fenomeni kimi səciyyələndirir. Yaradıcılıq fəaliyyətinizə verilən qiymətlər də məhz bu bütövlüyü, sənətə bağlılığı və fərdi yaradıcılıq missiyanızı ön plana çıxarır.

Siz illər ərzində ardıcıl həyata keçirdiyiniz sənət layihələri ilə Azərbaycan və Türkiyə arasında qurulan mədəni əlaqələrin inkişafına xidmət edən teatr xadimlərindən birisiniz. Bu xüsusiyyətlər Türkiyənin müxtəlif elm və ictimaiyyət nümayəndələrinin fikirlərində də xüsusi vurğulanır.

"Türkay" jurnalının naşiri Namık Nas "İFTİHAR PİRİYEV - Türk Dünyası Kültür Elçisi" başlıqlı yazısında ortaq mədəni dəyərlərə xidmət edən sənət missiyanızı belə ifadə edir: "Öyrəndim ki, İftihar bəy teatrı özünün ayrılmaz bir hissəsinə çevirib. Azərbaycan və Türkiyə arasında qurduğu teatr sənəti körpüsü vasitəsilə Türkiyədəki qardaş və bacılarının sevgisini qazanıb, Azərbaycanı daha yaxşı başa düşməyə töhfə verib və ortaq tariximizin qəhrəmanlarını və qəhrəmanlıqlarını səhnələşdirərək ürəkləri fəth edib".

Keçmiş Manisa valisi Halil İbrahim Daşöz İftixar Piriyevin dostluq, təşkilatçılıq və mədəni əlaqələrin inkişafındakı rolunu xüsusilə vurğulayaraq qeyd edir: "İftihar bəy dostluğa dəyər verən vəfalı bir insandır. O, lütfkar ünsiyyət və təşkilatçılıq bacarıqlarına malik mədəniyyət və incəsənət sahəsində çox dəyərli bir şəxsdir... Türkiyənin bir çox şəhərində teatr tamaşaları təşkil edib. Bu yolla o, həm ölkəsini tanıtmış, həm də Türkiyə - Azərbaycan münasibətlərinin inkişafına töhfə vermişdir".

Niğdə valisi Gündüz Bədərin xatirələri də İftixar Piriyevin Azərbaycan-Türkiyə mədəni əlaqələrinə verdiyi töhfələrin konkret bir hadisə üzərindən necə yadda qaldığını göstərir: "İftixar bəylə ilk dəfə 2005-ci ildə Niğdə şəhərində görüşdük. Niğdə şəhərindəki ən böyük "Qızıl Alma" adlı parkın İrəvan Teatrının gəlişi münasibətilə Heydər Əliyevin adına dəyişdirilməsinin birgə açılışını gerçəkləşdirdik. Niğdədə həyata keçirdiyimiz bu ismdəyişdirmə mərasimi Türkiyə ilə Azərbaycan arasındakı qardaşlığın unudulmaz bir nişanəsi oldu. Əslən Qərbi Azərbaycanın Gümrü şəhərindən olan bir insan kimi bu hadisə həyatımın ən dəyərli anlarına çevrildi".

Anadolu Aydınlar Ocağının başqanı, Üsküdar Universitetinin professoru, doktor İbrahim Öztek isə bu fəaliyyətin daha geniş ictimai-mədəni müstəvidə davam etdiyini vurğulayır: "İftihar Piriyevlə qardaşlığımız və candaşlığımız 25 ildən çoxdur. Görürəm ki, onun ölkəsinə və Türkiyə ilə Azərbaycan arasındakı qardaşlığa olan sevgisi çiçəklənməyə davam edir, yeni bəhrələrini verir və böyüyür. İftihar Piriyev Türkiyədəki qardaşları ilə birlikdə Türkiyə - Azərbaycan Böyük Qardaşlıq,Candaşlıq, Mədəniyyət və Strateji Platformasını Türkiyədə və Azərbaycanda qurdu. Bu platforma hər iki qardaş ölkədə getdikcə daha çox əhəmiyyət kəsb edir, Azərbaycan və Türkiyənin milli maraqlarını prioritetləşdirən ortaq bir cəmiyyətdir. Bu cəmiyyətin və vətəndaş cəmiyyəti təşkilatlarının Qarabağ, Xocalı, Qafqaz İslam Ordusu, 31 Mart Soyqırımı, Azərbaycan Respublikasının qurulması, diaspor tədqiqatları, Qarabağın Böyük Vətən Qələbəsi, türk və Azərbaycan döyüşçüləri, veteranları və təqaüddə olan zabitləri ilə bağlı işləri, Qərbi Azərbaycandan didərgin düşən soydaşlarımızın axtarılması əsasən İrəvan Azərbaycan Teatrının fəaliyyətində cəmləşib və bu çərçivədə davam edir".

Vətənpərvərlik, Dövlətçilik, Azərbaycançılıq, İrəvan və İrəvançılıq İftixarın həyat kredosudur!

Bu baxımdan Türkiyənin tanınmış cərrahı, professor Nəcmi Kurt İftixarı yalnız sənət adamı kimi deyil, Türk dünyasının ortaq mənəvi və mədəni dəyərlərinə xidmət edən ziyalı kimi qiymətləndirərək yazır: "İftihar Piriyev həyatımda rastlaşdığım nadir insanlardan biridir. Onun yanaşması və düşüncələri sayəsində Türkiyə Cümhuriyyəti və Azərbaycanın Türk dünyası üçün nə qədər dəyərli olduğunu daha yaxşı başa düşdüm; "bir millət, iki dövlət" ifadəsinin mənası... Türkiyə və Azərbaycanın onun səviyyəsində insanlara çox ehtiyacı var. Atatürk tərəfindən qurulan Türkiyə Cümhuriyyəti həm Türkiyə, həm də Azərbaycan, eləcə də türk respublikaları üçün çox vacibdir. Biz bunu görməyə bilərik, amma inanıram ki, 20-30 il ərzində təxminən 350 milyon türk xalqı Turan çətiri altında birləşəcək və güclü bir ittifaq yaradacaq".

Turançılıq ideyası İftixar Piriyevin həyat və sənət məfkurəsinin mühüm istiqamətlərindən birini təşkil edir. Bu istiqamətdəki fəaliyyətinə diqqət yetirdikdə onun Türk dünyası ilə mədəni əlaqələrin qurulmasına yönəlmiş yaradıcılıq xətti aydın görünür. Özbəkistan Xalq artisti Gülbahar Məmmədovanın fikirləri də bu istiqamətdəki fəaliyyətinizin müxtəlif yaradıcılıq mühitləri ilə əlaqələndiyini göstərir: "Mən İftixarı 2022-ci ildən teatrımız "Qaynana" tamaşası ilə Azərbaycanda qastrol səfərində olduğu zamandan tanıyıram... Bizi öz teatrının yaradıcı heyəti ilə görüşdürdü. Görüş çox səmimi və mehriban keçdi. Xoş təəssürat yaratdı. Sonra 2023-cü ildə Səmərqənd Musiqili Dram Teatrında



*A.Babayev. "Xilaskar"*

İftixarın "Könüllər mülkünün sultanı - Şeyx Nizami Gəncəvi" əsəri tamaşaya qoyuldu. Bu tamaşasının premyerasında iştirak etmək üçün Səmərqəndə dəvət olunmuş İftixarla bir neçə gün görüşlərdə olduq. Daha sonra isə Özbəkistanın Katta-Kurqan şəhərinin Məcidiy adına Teatrında hazırladığımız, İftixar qardaşımızın qələmə aldığı "Turan" tamaşası ünsiyyətimizin daha da genişlənməsinə səbəb oldu".

Bu fikirlər İftixar Piriyevin Türk dünyası




*V.Şekspir. "Kral Lir"*

ilə mədəni əlaqələrə yönələn yaradıcılıq fəaliyyətinin müxtəlif ölkələrin teatr mühitlərində davamlı qarşılıqlı əməkdaşlıq forması qazandığını göstərir.

"Qeyri-səlis məntiq" nəzəriyyəsinin teatr sənətində sinergetik adaptasiyası" (Elçin teatrı əhatəsində) doktorluq dissertasiyasının müəllifi olan İftixar bu nəzəri istiqamətin prinsiplərini praktiki səhnə fəaliyyəti ilə əlaqələndirərək Azərbaycan teatrında "Qeyri-səlis teatrı" anlayışının formalaşmasına zəmin yaratdı. Təsadüfi deyil ki, Xalq yazıçısı Elçin hələ 19 dekabr 2016-cı ildə S.Vurğun adına Rus Dram Teatrında nümayiş etdirilən "O da aşiq ola..." layihə-tamaşasının premyerasında bu yaradıcı istiqamətin formalaşmaqda olan yeni estetik xəttini görərək belə demişdi: "İftixar, sən əgər rejissor olaraq bu dəst-xəttini belə davam etdirsən, Azərbaycan səhnəsinə avanqard teatrı sən gətirmiş olacaqsan!".

"Qeyri-səlis teatrı" sisteminin gələcək sənətkarlıq hədəfi müasir Azərbaycan teatrının müstəqil etik-estetik zəmin üzərində inkişafına xidmət edən fikir, ideya və konseptual istiqamətlərin yeni sənət müstəvilərinə yönəldilməsini nəzərdə tutur. Bu istiqamətdə kulturologiya üzrə fəlsəfə doktoru, dosent Yeganə Əliyevanın qənaətləri diqqət çəkir: "Lütfi Zadənin "Qeyri-səlis məntiq - tolerantlıq məntiqidir; ...bütün elm sahələrini dəyişdirmək funksiyasını yerinə yetirir", - fikri İ.Piriyevin elmi araşdırmalarında qırmızı xəttlə cızılan ideya kimi təqdim olunur. Səhnə sənətində İftixarın "Qeyri-səlis teatrı" sistemi bir kəşf kimi çoxlaylı bədii materialla çalışmağa geniş imkanlar spektri yaradır. İftixar teatra Lütfi Zadənin qeyri-səlis məntiqini gətirməklə zamanın çağırışlarına, reallıqlara vaxtında reaksiya bildirir. Onun təcrübəsi, sənətkarlığı, teatral ideyaları milli səhnə sənətinə yeni üfüqlər açır. Səhnə Ustadı İftixarın teatr təşkilatçılığı təcrübəsi, rejissor, aktyor, şair-dramaturq və elmi-tədqiqatçı kimi fəaliyyəti Azərbaycanın intellektual-mədəni irsidir".

Bu məcrada teatr semiotikası səhnə sənətinin məna mexanizmlərini zənginləşdirərək teatrı mürəkkəb işarələr sistemi kimi təqdim edir. İftixarın "Qeyri-səlis teatrı" sistemi isə bu məna mexanizmlərinin hərəkətliliyini təmin edərək intellektual düşüncə üçün yeni məna trayektoriyaları açır.

İftixar sistemin mahiyyətini belə açıqlayır: "Biz ənənəvi teatrın varisi deyilik, yeni "Qeyri-səlis teatrı"nın yaradıcısıyıq. Amalımız: Hər şeyin heç nəyini, heç nəyin hər şeyinə çevirmək. Burada. İndi. Və Hər Zaman". Bu tezis "Qeyri-səlis teatrı"nın ənənəvi ikili qarşıdurmaları aşaraq mənanın dəyişkənliyinə, çoxqatlılığına və yeni əlaqələr qurmasına əsaslanan estetik istiqamətini yığcam şəkildə səciyyələndirir.

"Qeyri-səlis teatrı" konsepsiyasının yaratdığı rezonans beynəlxalq mədəni mühitdə də diqqət çəkir. Bu baxımdan Qırğızıstan Respublikasının Əməkdar mədəniyyət xadimi Bekijan Axmedov yazır: "2025-ci ildə xalqlar arasında sülhün və dostluğun sənət vasitəsilə möhkəmləndirilməsinə verdiyi töhfəyə, o cümlədən Azərbaycan - Qırğız ədəbi-teatr əlaqələrinin inkişafına görə Beynəlxalq İssık-Kul Forumunun Rəyasət Heyətinin qərarı ilə İftixar Piriyev Çingiz Aytmatov adına medalla təltif olundu. Bişkekdə İftixarın "Qeyri-səlis məntiq" mövzusunda monoqrafiyalarının təqdimatları oldu və bu işlər teatr sənətinə yenilik və töhfə kimi qiymətləndirildi. Çox rəmzidir ki, Çingiz Aytmatov insanilik və vicdan haqqında yazırdı. İftixar Piriyev isə vicdanı tamaşanın mərkəzinə qoyur ki, tamaşaçı sadəcə baxmasın, öz həqiqi mənini xatırlasın... ...İftixar Piriyevin istedadının və xarakterinin xüsusi cəhətlərindən biri cəsarət və novatorluqdur - adətən ayrılıqda mövcud olan sahələri, dərin nəzəriyyə ilə səhnə praktikasını birləşdirməkdən çəkinməyən tədqiqatçıdır. İftixar Piriyev fenomeni ondadır ki, onun əsərlərində və baxışlarında humanitar düşüncə cəsarətlə adi fənnlərarası sərhədləri aşır və Lütfi Zadənin riyazi əsaslandırılmış nəzəriyyəsi ilə dialoqa girir, dramaturgiya və səhnə təcrübəsinin təhlili üçün yeni metodoloji linza yaradır. Böyük Mövlana Rumi dünyaya deyirdi: "Gəl, yenə gəl!". Bu, ümidə və mənəvi yüksəlişə çağırışdır. Mənə elə gəlir ki, İftixar Piriyev ömrü boyu bu ifadəni sözlə yox, əməllə deyənlərdəndir: "mənaya təkrar-təkrar gəl, mədəniyyətə məsuliyyət kimi gəl, dostluğa əmanət kimi gəl...".

Bu kontekstdə Qırğızıstanın Azərbaycandakı sabiq səfiri, hüquq elmləri doktoru, professor Kayrat Osmanaliyevin qənaəti xüsusilə diqqət çəkir: "Elçin Teatrı: Absurd Dram Qeyri-səlis Məntiq Nəzəriyyəsi Kontekstində" kitabında İftixar ardıcıl olaraq "absurdluq/məntiq"in yalançı dixotomiyasını dağıdır və qeyri-səlis çoxluq nəzəriyyəsinin paradoks xaosunu ölçülə bilən məna spektrinə necə çevirdiyini nümayiş etdirir. Əsas yenilik budur: absurdluq rasionallığın rədd edilməsi deyil, onun qeyri-xətti davamı olduğu ortaya çıxır. Elçinin dramaturgiyasının Piriyevin Zadə nəzəriyyəsi ilə qarşılıqlı təsiri fizikada spektroskopiya təcrübəsinə bənzəyir: biz sadəcə tamaşanı görmürük, onun mənalarının dalğa uzunluqlarını qeyd edirik. Beləliklə, teatr poetik sirrini itirmədən elmi dəqiqliyini bərpa edir".

Bişkekdə keçirilən İftixar Piriyevin kitab təqdimatlarında bu nəzəri-estetik istiqamətin səhnə praktikası ilə əlaqəsinə dair daha iki diqqətçəkən qiymətləndirmə də səsləndirilib. Qırğızıstan Respublikasının Xalq rəssamı Marat Şarafudinov belə yazır: "Elçin Teatrı: Absurd Dram Qeyri-səlis Məntiq Nəzəriyyəsi Kontekstində" monoqrafiyasının sistematik təbiəti halların toplusunda deyil, hər bir halın qeyri-müəyyənlik parametrləri daxilində "məna təcrübəsi" olmasındadır. İftixar səhnədəki mətn kvantlarının, hərəkətin və fasilələrin necə "dərəcəli mənalar" funksiyasını qazandığını göstərir - yalnız yarımtonlar deyil, həm də idarə olunan intensivliklər. Müəllifin əsas nailiyyəti "iş platforması"nın yaradılmasıdır: konsepsiyadan səhnəyə, səhnədən konsepsiyaya".

Qırğızıstan Respublikasının Xalq şairi Markabay Aamatov isə bu yanaşmanın aktyor və rejissor fəaliyyətinə təsirini önə çəkir: "...Onun "Qeyri-səlis teatrı" başqa bir rejissorluq məktəbi deyil, aktyor və tamaşaçı həqiqət nöqtəsində deyil, onun dərəcələri sahəsində görüşdüyü teatr jestinin yeni bir ontologiyasını təklif edir. İkili məntiqdən dərəcəli məntiqə keçid rejissorluq pedaqogikasını dəyişdirir: aktyor "vəziyyət"i oynamağı dayandırır və onun intensivliyini idarə etməyə başlayır. Piriyev mənsubiyyət dərəcəsi texnikasının rol texnikasına necə çevrildiyini göstərir".

AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor Ərtegin Salamzadə qeyri-səlis məntiq konsepsiyasının humanitar sahədəki elmi əhəmiyyətini belə qiymətləndirir: "İftixarın "Qeyri-səlis məntiq və teatr" kitabı cəmiyyətdə postmodern mədəniyyətini təsdiq edir və qəti surətdə qarşımıza qoyur. İftixar Piriyevin bu tədqiqatı sadəcə humanitar yazı deyildir, multidistiplinar, fənnlərarası bir tədqiqatdır. Postmodern mədəniyyəti postfəlsəfə, postelm, postməntiq kimi fenomenləri meydana çıxarır və "Qeyri-səlis məntiq" həmin postməntiqin göstəricisidir. İftixar müəllim mədəniyyətdə meydana çıxan yeni qaydaların formalaşmasında fəal iştirak edir. Onun "Siluet", "Səs" tamaşaları buna əyani sübutdur".

"Qeyri-səlis məntiqin humanitar elm sahəsinə, xüsusən də teatr sənətinə tətbiqinin müəllifi İftixardır", - deyə mövqeyini ifadə edən filologiya elmləri doktoru, professor Rüstəm Kamal bu tətbiqin konkret teatr mexanizmlərinə necə keçdiyini belə açıqlayır: "Teatr sənəti bir çox nəzəriyyələrin fövqündə duran sənətdir; çünki sinkretik sənətdir, sintez mədəniyyətidir. İftixar bu texnoloji nəzəriyyəni, riyazi nəzəriyyəni mənə nə qədər sadə dillə izah edirdi. Deyirdim ki, sən bu nəzəriyyəni rejissor işinəmi, aktyor oyununamı, yoxsa dram mətninə tətbiq edirsən? İftixarın yaratdığı sistemdə qeyri-səlis məntiq rejissor işinə tətbiq edilib, çoxlu maraqlı terminlər vardır, məsələn aktyor energetikası, yaxud da mətnin özündən gələn energetika. İftixar teatrın içini də, çölünü də möhtəşəm bilir, həm də yüksək nəzəri qələmə sahibdir. Nəzəriyyənin tətbiqini teatrşünaslıq dilinə gətirmək fövqəladə çətin məsələdir. Aktyor psixologiyasına yeni yanaşma, yeni baxış, yeni skeptik yanaşmalardır".

Müasir teatr düşüncəsində rejissorun yalnız yaradıcı deyil, həm də tədqiqatçı şəxsiyyət kimi formalaşması zərurəti xüsusi aktuallıq kəsb edir. Bu çoxşaxəli fəaliyyətin sənətkar fenomeni kimi elmi ümumiləşdirilməsi Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Hüsey-



*İftixar. "Qurtuluş dastanı"*

novanın "Sənət taleyini özü yazan İftixar" adlı məqaləsində öz dolğun ifadəsini tapır: "İftixar Piriyevin yaradıcılığı uğurlu tamaşaları, pyesləri və rejissor həlləri ilə yanaşı, milli teatr düşüncəsinə gətirdiyi yeni nəzəri-estetik istiqamət, "Qeyri-səlis teatrı" konsepsiyası və Türk dünyasının ortaq mədəni məkanına verdiyi töhfələrlə səciyyələnir. Bu baxımdan İftixar Piriyevin sənət yolu müasir Azərbaycan teatr tarixində yaradıcı şəxsiyyətin, alim təfəkkürünün və milli-mədəni mis-



*Türkiyə görüşləri*

siyanın vəhdətini özündə birləşdirən mühüm bir fenomen kimi dəyərləndirilir...".

Mahirə xanımın dəyərli fikirləri Milli Məclisin deputatı Sabir Hacıyevin İftixar Piriyev şəxsiyyətinə münasibətində də öz təsdiqini tapır: "Parlaq zəkalı, zəngin mənəviyyatlı, güclü yaradıcı potensialı olan şəxsiyyətdir; bütün bu keyfiyyətlərlə yanaşı, o, olduqca səmimi, təvazökar, vətəninə, torpağına, elinə bağlı əsil yaradıcı insandır. İnanıram ki, İftixar bundan sonra da mədəniyyətin, incəsənətin, teatr sənətinin inkişafında daha böyük uğurlar əldə edəcəkdir".

Professor Dr. Ömər Bəyazid isə İftixar Piriyevin yaradıcılığını Türk dünyasının ortaq mədəni məkanı kontekstində dəyərləndirərək yazır: "4 fevral 2020-ci ildə Xocalı soyqırımının il dönümündə, Prof. Dr. İbrahim Öztəkin rəhbərlik etdiyi heyətlə Bakıya səfər etdik. Əziz dostumuz İftixarın qonağı olduq. İftixarın "Soyqırımı tarixinin dastanı" tamaşasını izləmək şansım oldu. Ulu Öndər Heydər Əliyev haqqındakı teatr tamaşasını da seyr etdim. "Kral Lir" tamaşasının məşqləri haqqında da eşitdim. Onun ümumtürk incəsənət aləminə verdiyi töhfələr bütün türk xalqları və Turan torpaqları üçün qürur mənbəyidir".

İftixarın aktyor yaradıcılığında Heydər Əliyevin öndərlik missiyasının bədii təcəssümü "Xilaskar", "Qurtuluş dastanı", "Burdan min atlı keçdi" tamaşalarında rəğbətlə qarşılanır. Yazıçı-dramaturq Xeyrəddin Qoca qeyd edir: "...tamaşalara baxıb təəccüb və heyrətimi gizlədə bilmədim. Tanınmış aktyor, Əməkdar mədəniyyət işçisi İftixar Piriyev Heydər Əliyev obrazını məhz həyatda olduğu kimi, inandırıcı şəkildə yaradır. Hər aktyor Heydər Əliyev obrazını onun kimi möhtəşəm canlandıra bilməz...".

Əsl sənətkarın böyüklüyü yalnız onun bədii yaradıcılığı, quruluş verdiyi əsərlər və oynadığı obrazlarla deyil, aşıladığı dəyərlər, yaratdığı teatr sistemi, sənət platforması, səhnə vizyonu və yetişdirdiyi sənət insanları ilə də ölçülür. Bu baxımdan Siz uzun illər ərzində novator təcrübələrinizi gənc nəslə ötürərək milli teatrın gələcəyinin formalaşmasına mühüm xidmət göstərmisiniz. Sənət və gənclik dostunuz, Xalq artisti, professor Bəsti Cəfərovanın qeyd etdiyi kimi: "2019-cu ildə dahi şairimiz Nəsimiyə həsr etdiyi müəllifi olduğu "Haqq mənəm" tamaşasında səhnədə ifaçılar arasında İncəsənət İnstitutunu yenicə bitirmiş tələbələrimizi gördüm və sevindim. İftixar gənc istedadları teatra işə qəbul etməklə, gələcəkdə adlı-sanlı aktyor nəslinin yetişməsinə səbəb olacaq. İftixarda sahiblənmək hissi çox güclüdür, o, bu gənclərə arxa-dayaq olur, onların sənətdə inkişafı üçün əlindən gələni əsirgəmir. İftixar teatr sahəsinin insanıdır, teatrı çox sevdiyi üçün onun gələcəyini də düşünür".

**Yazıçı Əmir Pəhləvan:** *"...Vaxtilə yunan mifologiyasına aid mərasimlərdə Böyük Dionisə həsr edilən tamaşalarda Allahlarla bağlı mifik hadisələr və ruh əhvalatları ifa edən aktyorlar uzun bir yol qət edərək bu günümüzün ən yüksək inkişaf mərhələsinə gəlib çıxmışlar. Bəli, düşüncələrimizin obrazlı qəhrəmanları - Aktyorlar! O aktyorlardan biri də mənim dostum İftixar Piriyevdir. Sözü qiymətli, ifaları möhtəşəm, dostluğu başqalarına ibrət dərsi olan etibarlı İnsan, xeyirxah və dəyərli incəsənət məmuru, vətənpərvər ziyalı bir sənətkarla necə fəxr etməyəsən? Mən həmişə səninlə qürur duymuşam, əziz dost!..".*

**Xalq artisti Firəngiz Mütəllimova:** *"...Mən həmişə onu çox istəmişəm, çox da istəyəcəyəm. Onun əsl insani keyfiyyətini və məni nə qədər əziz tutduğunu nə zaman hiss elədim? Bir gün gördüm ki, İftixar Şuşadan, bizim uçulub-dağılmış evimizdən, pilləkənlərimizin başında oturub mənə görüntülü zəng eləyir. Vaxtilə, bir gecəlik Şuşaya səfərində anamı ziyarət etməsini göz yaşları ilə xatırlatdı... Mən o hadisəni heç vaxt unutmaram...".*

**Xalq artisti Sabir Məmmədov:** *"Biz İftixarla Elçinin "Stalin" pyesi əsasında "Stalin - İzm" tamaşası üzərində çalışırıq. İftixar bu tamaşaya "Qeyri-səlis məntiqi" tətbiq edir. Aktyor ifaçılığında klassik oyun üslubu, ənənəvi, modernist, epik janr və s. ifa üslubları vardır. Qeyri-səlis düşüncənin aktyor sənətində böyük təzadlardan keçən tətbiqi isə həddən artıq mürəkkəbdir. Düşüncə tərzi, plastika, necə olur ki, eyni anda həm hərəkət edirsən, həm söz deyirsən, həm kədərlənirsən, həm sevinirsən, həm də eyni anda düşünürsən. Bu, Azərbaycan teatr sənətində, aktyor ifaçılığı məktəbində - aktyordan səlis düşüncə və qeyri-səlis ifa bacarığı tələb edən çox yeni təzahürdür".*

**Avanqard rejissor və aktyor Elvin Mirzəyev:** *"...baxmayaraq ki, "Qeyri-səlis teatrı" sistemi İftixara aiddir, amma mən bu kəşfdən faydalanaraq tamaşa üzərində tətbiq edirəm. Bugünkü gündə mən teatrda bir Kral Lir tanıyıram və o Kral Azərbaycan mədəniyyətində yeni bir tapıntıdır. Lirin səsi İftixarın səsidir və o Kralın siması İftixarın simasıdır. İftixar bəy! "Kral Lir" dünyasını Sizin resurslarda kəşf etdikcə, əminliklə deyə bilirəm: Böyük Aktyorsunuz! "Kral Lir"in İrəvan Teatrında olan heyəti və Sizinlə çox böyük zövq və yaradıcı ifadəsini tapıram!".*

**Gürcü aktyoru və rejissoru Qoça Kapanadze:** *"İftixar dramaturq və rejissor kimi çox istedadlı şəxsiyyətdir. Onun maraqlı pyesləri, tamaşaları, layihələri vardır. İftixar olduqca hərtərəfli savada malik intellektual sənətkar, öz xalqının vətənpərvər övladı, bizlərin isə sənət dostudur".*

**Suxumi Dövlət Dram Teatrının aktrisası Lili Xuriti:** *"Biz onunla Suxumi Dövlət Dram Teatrının Bakıda qastrol səfərləri zamanı tanış olduq. Bu günə qədər teatrımızda Azərbaycan qonaqpərvərliyi böyük sevgi və minnətdarlıqla xatırlanır.*

*Sonralar İrəvan Teatrı ilə Gürcüstanın Xalq artisti, teatrımızın bədii rəhbəri Dimitri Caianinin iştirak etdiyi birgə layihə həyata keçirildi. Premyera öncə Bakıda, daha sonra isə Tbilisidə baş tutdu. Aramızda həqiqi bir dostluq yarandı. İftixar yaxşı dost, yaxşı aktyor, öz işinin peşəkarı olmaqla yanaşı, böyük və sevən ürəyə malik gözəl bir insandır.*

*Bir dəfə Tbilisidə, süfrə arxasında olarkən, İftixara telefon zəngi gəldi. O, ayağa qalxıb üzr istədi, kənara çəkildi və danışmağa başladı. Böyük və güclü bir Qafqaz kişisi qəfildən kiçik bir uşağa çevrildi. Üzü sevinc və xoşbəxtlikdən işıq saçırdı. Zəng edən anası idi. Süfrədə ciddi tamada olan Dima tostunu yarımçıq kəsdi və sevən oğula baxaraq kövrəldi, gözləri yaşla doldu. Dima ona dedi: - Sən bu günə qədər mənim dostum idin, bu gündən isə qardaşımsan".*

**Hörmətli Ustad!**

Sizin sənət eşqiniz, yenilikçi təfəkkürünüz və yorulmaz fəaliyyətiniz hər zaman Azərbaycan teatrının inkişafına yönələn işıqdır. Adınız və yaratdığınız sənət məktəbi Azərbaycan teatr tarixində daim ehtiramla yaşayacaqdır.

**Doğum gününüzü ürəkdən təbrik edirik!**



*Nərminə AĞAYEVA,*
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Dağıntılardan yeni həyata



## Şükürbəyli yenidən qurulur...

Cəbrayıl rayonunun Şükürbəyli kəndində uzun fasilədən sonra yaşayış yenidən bərpa olunur. İşğaldan azad edildikdən sonra tamamilə yenidən qurulan kənd artıq keçmiş sakinlərini qəbul edir. 2026-cı ilin yazından etibarən Şükürbəyliyə köç karvanları yola salınır, yeni salınmış küçələrdə kənd sakinlərinin ilk addımları görünür.

Mayın 9-da kəndə ilk köç baş tutub. Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Şükürbəyli sakinləri ilə görüşüblər. Bununla da kənddə aparılan tikinti və abadlıq işlərinin əsas mərhələsi başa çatıb və Şükürbəyli Böyük Qayıdış proqramı çərçivəsində yaşayış üçün hazır vəziyyətə gətirilən yaşayış məntəqələrindən birinə çevrilib.

**154 nəfər köçüb**

Dünən isə Şükürbəyli kəndinə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə kəndə 25 ailə - 154 nəfər köçürülüb. Köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.



Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr sevinclə açarları qəbul edərək, evlərində məskunlaşıblar.

**Dağıntılardan ən çox zərər çəkən kəndlərdən biri**

İşğaldan əvvəl kənddə məktəb, kitabxana və xəstəxana fəaliyyət göstərirdi. Əhali əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq və baramaçılıqla məşğul olub. 1993-cü ildə Şükürbəyli Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. İşğal illərində kəndin yaşayış infrastrukturu tamamilə dağıdılıb, əhalisi doğma yurdunu tərk etməyə məcbur olub.

Cəbrayıl rayonunun işğalı zamanı kəndlərdəki evlər, sosial obyektlər və digər tikililər dağıdılıb. Şükürbəyli də bu dağıntılardan ən ağır şəkildə zərər çəkən yaşayış məntəqələrindən biri olub.

**27 il sonra...**

Şükürbəyli kəndi 4 oktyabr 2020-ci ildə Vətən müharibəsi zamanı Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. Həmin gün Cəbrayıl şəhəri ilə yanaşı, rayonun bir sıra kəndləri, o cümlədən Şükürbəyli də düşmən işğalından azad olunub. Cəbrayılın azad edilməsi Vətən müharibəsinin ilk günlərində mühüm hərbi nəticələrdən biri idi. Rayonun yaşayış məntəqələrinin ardıcıl şəkildə azad edilməsi Azərbaycan-İran dövlət sərhədinin həmin ərazidə nəzarətə götürülməsinə də imkan yaradıb.

**Kəndin yeni tarixində mühüm mərhələ...**

İşğaldan azad olunan Şükürbəyli kəndində bərpa işlərinə başlanılması üçün əsas mərhələlərdən biri 2023-cü ildə həyata keçirilib. Prezident İlham Əliyev həmin il kəndin təməlini qoyub. Bundan sonra kəndin baş planına uyğun olaraq yaşayış evləri, sosial obyektlər, yollar və digər infrastruktur qurulmağa başlanılıb. Məqsəd yalnız yaşayış evlərinin inşası deyil, sakinlərin gündəlik ehtiyaclarını tam təmin edə biləcək müasir yaşayış mühitinin yaradılması olub.

Bu gün Şükürbəyli tamamilə yeni görkəmdədir. Kənddə yaşayış evləri ilə yanaşı, təhsil, səhiyyə və sosial xidmət obyektləri də yaradılıb. Yeni məktəb binası inşa edilib. Məktəbdə müasir fənn kabinetləri, fizika, kimya və biologiya laboratoriyaları, informatika və texnologiya kabinetləri, ibtidai hərbi hazırlıq sinfi, kitabxana, akt və idman zalları, yeməkxana fəaliyyət göstərir. Məktəbin ərazisində futbol və basketbol meydançaları da yaradılıb.

Bundan başqa, Şükürbəylidə musiqi məktəbi, iki uşaq bağçası və tibb məntəqəsi yaradılıb. Beləliklə, kəndə qayıdan ailələrin uşaqlarının təhsil və məktəbəqədər hazırlığı, sakinlərin isə ilkin tibbi xidmətə çıxışı yaşayış məntəqəsinin özündə təmin olunur.

**Şükürbəylidə məşğulluq necə təmin olunacaq?**

Şükürbəyliyə qayıdan sakinlərin yaşayışla yanaşı, məşğulluğunun təmin edilməsi də əsas məsələlərdəndir. Kənddə dövlət sektorunda iş imkanları ilə yanaşı, kənd təsərrüfatı ilə məşğul olmaq üçün də şərait yaradılır. Xüsusilə, heyvandarlıq və bitkiçilik sahələrinin inkişaf etdirilməsi nəzərdə tutulur. Bu isə kəndin əvvəlki təsərrüfat ənənələrinin müasir imkanlarla davam etdirilməsi baxımından əhəmiyyətlidir.

Məlumdur ki, Şükürbəyli böyük iqtisadi və nəqliyyat layihələrinin əhatəsində təkcə yaşayış məntəqəsi kimi deyil, Cəbrayılın gələcək iqtisadi inkişafının bir hissəsi kimi də diqqət çəkir.

Cəbrayıl rayonunda fəaliyyət göstərən “Araz Vadisi” İqtisadi Zonası artıq rezidentlərini qəbul edib. 200 hektar ərazini əhatə edən sənaye zonasında istehsal fəaliyyətinə başlanılıb. Rayonda nəqliyyat infrastrukturu da yenilənir. Cəbrayılı Azərbaycanın digər əraziləri ilə birləşdirən yeni yollar, o cümlədən Zəngəzur dəhlizinin bir hissəsi olan dördzolaqlı yol bölgənin gələcək nəqliyyat imkanlarını genişləndirir.

**Enerji infrastrukturu da yenilənir...**

Cəbrayıl rayonunda bərpaolunan enerji layihələri də həyata keçirilir. Rayonda ümumi gücü 340 meqavat olan 3 Günəş elektrik stansiyasının inşası nəzərdə tutulub. Bu layihələr yalnız Cəbrayılın deyil, ümumilikdə Qarabağ və Şərqi Zəngəzurun enerji potensialının artırılmasına xidmət edir.

Bir sözlə, Şükürbəyli yenidən yaşayış məntəqəsinə çevrilir. Bu gün həmin mərhələ artıq real nəticələrlə müşayiət olunur. Yeni evlər, məktəb, bağçalar, tibb məntəqəsi, musiqi məktəbi, yollar və digər obyektlər kəndin simasını dəyişib. Ən əsası isə Şükürbəyli yenidən sakinlərini qəbul edir. Kəndin küçələrində həyatın bərpa olunması ilə Cəbrayılın yaşayış xəritəsində daha bir məntəqə öz əvvəlki yerini tutur. Şükürbəyli üçün bundan sonrakı mərhələ isə artıq qayıdışdan sonrakı həyatın qurulmasıdır.

*Yeganə BAYRAMOVA*

# “Əkiz qüllələr”dən dünyaya yayılan qorxu!

## 2977 ölü, 24 itkin...

2001-ci il sentyabrın 11-i təkcə ABŞ tarixinin deyil, bütün dünyanın yaddaşına həkk olunan ən faciəli günlərdən birinə çevrildi. Həmin səhər baş verən terror hücumları minlərlə insanın həyatına son qoydu və beynəlxalq münasibətlərdə yeni bir dövrün başlanğıcını qoydu. Artıq həmin hadisələrdən 25 il ötür. Nyu-Yorkda, “Əkiz qüllələr”də baş verən dəhşətli terror aktı təkcə bir neçə min günahsız insanın həyatına son qoymadı, həm də beynəlxalq münasibətlərin bütün sistemini dəyişdirdi. O gün sübut olundu ki, terror artıq lokal problem deyil, bütün bəşəriyyətin ortaq dərdidir.

Paytaxtdan da böyük şəhərin ən böyük ticarət mərkəzləri yerlə-yeksan olarkən dünya bir həqiqəti qəbul və təsdiq etdi: heç bir dövlət, heç bir xalq bu bəladan sığortalanmayıb. Həmin hadisə göstərdi ki, 21-ci əsrdə sülh və təhlükəsizlik anlayışı yalnız bir ölkənin deyil, bütün planetin taleyinə bağlı olacaq.

**11 sentyabr terrorundan 25 il ötür**

### Ard-arda 4 hücum...

- Yerli vaxtla saat 08:46-da “American Airlines” (Amerika hava yolları) şirkətinə məxsus sərnişin təyyarəsi Nyu-Yorkda yerləşən Dünya Ticarət Mərkəzinin Şimal qülləsinə çırpıldı.
- 09:03 radələrində isə Cənub qülləsi bənzər hücuma məruz qaldı.
- 40 dəqiqə sonra, yəni 09:43-də ABŞ Müdafiə Nazirliyi - Pentaqonun binası da intiharçıların idarə etdikləri təyyarə tərəfindən vuruldu.
- Bu hücumdan 25 dəqiqə keçdikdən sonra eyni məqsədlə qaçırılan bir sərnişin təyyarəsinin hava hücumundan müdafiə qüvvələri tərəfindən vurularaq zərərsizləşdirildiyi açıqlandı. Həmin təyyarənin hədəfinin Ağ Ev olduğu bildirildi.

### Terrorçunun milliyyəti və dili olmur

Terror aktı nəticəsində 2977 nəfər həlak olub, 19 terrorçu ölüb, 24 nəfər itkin düşüb, ən azı 102 ölkənin vətəndaşı həyatını itirib. İnfrastruktura və əmlaka 10 milyard dollara yaxın ziyan vuruldu. Müvafiq olaraq 343 yanğınsöndürən və 71 hüquq-mühafizə orqanı əməkdaşı həyatını itirdi.

Bu hadisə bir günün deyil, bütün bir dövrün simvoluna çevrildi. Terror insan həyatının, mədəniyyətin, sivilizasiyanın ən böyük düşmənidir. Bu aksioma terrora qarşı mübarizənin qlobal əhəmiyyət daşıdığını təsdiqlədi. Hadisənin dəhşəti həm də insanlığa bəslənən nifrətin, gözlənilməz qəddarlığın fonunda



terrorun mahiyyətini ortaya qoyurdu. 11 sentyabr ona qədərki terror hadisələrinin dəhşətini danışırdı və göstərirdi - terrorçunun milliyyəti və dili olmur. Deməli, 11 sentyabr terroru həm də Xocalı idi, həm də Srebrenitsa idi, həm də digər faciələr, terrorlar idi, bu terrorlara susqunluğun nəticəsi idi...

Bu faciə hər kəs üçün həm nümunə, həm də dərs idi. Heç kim terror təhlükəsindən sığortalanmayıb. İstənilən millət, istənilən şəhər, istənilən insan bu amansız ideologiyanın hədəfinə çevrilə bilər. Necə ki, Nyu-York çevrildi.

### Terrorla mübarizə yalnız güclə aparılmamalıdır...

11 sentyabr hadisəsi həm də göstərdi ki, terrorçuların məqsədi təkcə can almaq deyil, həm də insanlığın ruhunu sarsıtmaq, ümidini qırmaqdır. Onlar ölüm vasitəsilə qorxuya hakim olmaq, siyasi iddialarını zorla qəbul etdirmək istəyirlər. Amma ən ağır məqam odur ki, bu cinayətlərdən ən çox əziyyət çəkən günahsız insanlardır. 11 sentyabrda ölənlər işinə tələsən ofis işçiləri, xidmət personalı, təcili yardıma qaçan xilasedicilər idi.

Terror yalnız bir ölkənin problemi deyil. Bütün böyük dövlətlər 11 sentyabrdan sonra “terrora qarşı mübarizə” şüarı ilə çıxış etdilər. Lakin sual budur: Mübarizə nə dərəcədə səmərəli oldu? Silahların kölgəsində aparılan əməliyyatlar, geosiyasi maraqlar naminə yaradılan münaqişələr bəzi hallarda terroru aradan qaldırmadı, əksinə, yeni ocaqlar yaratdı. Bu isə onu göstərir ki, terrorla mübarizə yalnız güclə deyil, həm də ideyalarla, mədəniyyətlə, maariflə aparılmalıdır.

Terror aktlarına cavab tədbirləri ilə bağlı Federal Təhqiqatlar Bürosunun (FTB), digər federal agentliklərin və ABŞ-ın beynəlxalq tərəfdaşlarının gərgin işi sayəsində o vaxtdan bəri Amerika ərazisində xarici terror təşkilatları tərəfindən heç bir irimiqyaslı hücum baş verməyib. Lakin ABŞ-ın səylərinə baxmayaraq son 20 ildə texnologiyalar inkişaf etdikcə, dünyada qarşılıqlı əlaqələr möhkəmləndikcə, məlum təhdidlər transformasiyaya məruz qalıb, yeni təhdidlər yaranıb. Xüsusilə, son vaxtlar kibertəhlükəsizliklə bağlı təhdidlər artıb. Belə təhdidlər adətən ölkələrin hüdudlarından kənarda təşkil olunur.

Terror aktının onuncu ildönümündə - 2011-ci ildə “Əkiz qüllələr”in yerində hadisə qurbanlarının adlarının həkk edildiyi memorial kompleksin açılışı olub. 2014-cü ilin mayında isə ABŞ-da 11 sentyabr hadisələrinə həsr olunmuş muzey fəaliyyətə başlayıb. Muzeyin əsas hissəsi yer səthindən 20 metr dərinlikdə yerləşir. Ekspozisiyada, əsasən insanların qaçaraq xilas olmağa çalışdıqları beton pilləkən, dağılan binanın polad karkasının fraqmentləri, dağıntılar altında qalaraq əzilmiş yanğınsöndürən maşın və terror aktı qurbanlarının şəxsi əşyaları nümayiş olunur.

25 il keçməsinə baxmayaraq, bir həqiqət dəyişmir: terrorun ən böyük qurbanları günahsız insanlardır. 11 sentyabr faciəsi göstərdi ki, zorakılıq yalnız bir binanı və ya bir şəhəri deyil, milyonlarla insanın təhlükəsizlik və gələcəyə baxışını dəyişə bilər...

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4440**
**Sifariş: 1161**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova